RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 91 (8684) ŞƏNBƏ, 1 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## ◆ Qarabağ dirçəliş yolundadır



# Qalib Sərkərdə Zəngilandan mesaj verdi: Qarabağın yollarını çəkib Zəngəzur dəhlizinə keçəcəyik

**Qarabağda tikinti bumu başlayıb. 44 günə "dəmir yumruq" əməliyyatı ilə bu torpaqları düşməndən təmizləyən İlham Əliyev indi dəmir iradə ilə qurub-yaratmaqla məşğuldur.**

Tez-tez Qarabağa səfər edib görülən işlərlə şəxsən maraqlanması, böyük infrastruktur layihələrinin təməlini qoyması, iştirak etdiyi toplantılarda, keçirdiyi görüşlərdə dost və tərəfdaş ölkələrin şirkətlərini Qarabağa investisiya yatırmağa dəvət etməsi bir daha Prezidentin gündəliyinin prioritetinin işğaldan azad edilmiş əraziləri cənnətə çevirməkdən ibarət olduğunu göstərir.

Cəbrayıl və Zəngilana növbəti səfəri zamanı İlham Əliyev hər bir azərbaycanlını qürurlandıracaq addımlar atdı. Zəngilanda Beynəlxalq Hava Limanının və Zəngilan-Horadiz avtomobil yolunun, həmçinin "ağıllı" kənd pilot layihəsinin təməlini qoydu.

"Böyük Qayıdış"a start verən İlham Əliyev dosta da, düşmənə də mesaj verdi: Qarabağı dəmir yumruqla aldığı kimi, quruculuğuna, dirçəlişinə də memarlıq edir və bunun üçün lazımi gücü, qüvvəsi də var!

### Füzuli və Zəngilandan sonra Laçında da hava limanı tikiləcək

Zəngilanda yeni hava limanının tikintisi ilə işğaldan azad edilmiş torpaqlarda ikinci hava limanının inşasına start verildi. Bundan öncə İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanının təməlini qoymuşdur və bu gün tikintisi uğurla gedir.

Prezident bu il Füzuli hava limanının uçuş-enmə zolağının istismara veriləcəyinin müjdəsini də verdi. Bu isə o deməkdir ki, 2021-ci ildə Füzuli aeroportu ilk təyyarələri qəbul edə biləcək.

*Ardı 4-cü səh.*

# Azərbaycanın Avropa İttifaqı ilə yeni saziş layihəsi üzrə danışıqları tezliklə yekunlaşacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olundu. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırdı. Söhbət zamanı Azərbaycan Respublikası-Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edildi və Azərbaycan Respublikası-Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olundu.

## *Azərbaycanın özü qədər əbədi*



# Dünyanın ən böyük azərbaycanlısı

**Müasir Azərbaycan dövlətinin hazırkı inkişaf mərhələsinə çatmasında bir çox amillər müstəsna rol oynamışdır. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur.**

Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini bərpa edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyev olmuşdur. Həm SSRİ, həm də müstəqillik dövründə Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyəti yalnız Azərbaycan xalqının tərəqqisi və inkişafına xidmət etmişdir. Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə inkişaf edərək tərəqqi yoluna çıxıb, bütün sahələrdə mühüm uğurlar, parlaq nəticələr əldə edilib.

Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu haqqında bəhs edərkən Ümummilli Liderin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq lazımdır. Gözlərimiz önündə şərəflə yaşanan ömrünün 35 ilə yaxın bir dövründə Azərbaycana rəhbərlik edən, onun ən parlaq yaradıcısı, qurucusu, ilhamverici qüvvəsi olan, bəşərilik zirvələrini fəth edərək əbədiyaşarlıq rəmzinə çevrilən Ulu Öndər Heydər Əliyev bütövlükdə Azərbaycan Respublikası ilə birlikdə həm də Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin ən möhtəşəm memarı, yaradıcısı, qurucusu, dinamik inkişafının tənzimləyicisi kimi şüurlara, yaddaşlara əbədi həkk olunub.

*Ardı 3-cü səh.*

# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi - Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə və nümunəvi dövlət-din münasibətləri modelinə malik olan ölkəmizdə ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələri yüz illərdir ki, mehriban qonşuluq, dostluq və qardaşlıq mühitində vahid ailə kimi yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Müasir dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız, o cümlədən pravoslav xristianlar ölkədə gedən böyük quruculuq işlərində və respublikamızın sosial-mədəni həyatında fəal iştirak edirlər. Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında xristian həmvətənlərimizin xidmətlərini yüksək qiymətləndirirəm. İnanıram ki, onlar Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə qüvvələrini səfərbər edərək bundan sonra da əzmlə çalışacaqlar.

Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir. Bu əziz gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2021-ci il*

## ◆ Jurnalist araşdırması

# Qarabağ mövzusu telekanallarda niyə bəsit işıqlandırılır

### Məişət dedi-qoduları, primitiv şoular teleməkanda hələ də Vətən və Zəfər mövzusunu üstələyir

**Təbii ki, özəl kanalların biznes maraqları da var, amma bu maraqlar xalqın, dövlətin ictimai mənafeyini üstələyə bilməz və üstələməməlidir.**

Yüz illər sonra Azərbaycanın bugünkü telekanallarının fəaliyyətinə nəzər salanlarda elə bir təsəvvür yaranacaq ki, XXI əsrin əvvəllərində azərbaycanlı tamaşaçılar ölkənin həyatında baş verən bu qədər taleyüklü məsələlərin fövqündə televiziyalardan yalnız şou tələb ediblər...

Məgər xalqımızın mavi ekrana çıxarılacaq üzləri sadəcə gəlinini yola verməyən qayınanadır?



Yoxsa valideyninin üzünə ağ olan övladlar...

Və bütün cəmiyyətlərdə var olan 3-5 belə mənəviyyat kasadlarını xüsusi səylə axtarıb taparaq ictimaiyyətə təqdim etməyin məramı nədir?

Azdırmı əri şəhid olan, azyaşlı övladlarını min bir əziyyətlə böyüdən, onlara təhsil verən, əllərini çörəyə çatdıran qəhrəman analarımız? Bəlkə hər iki valideynini Xocalıda itirən və uşaq yaşlarından bacı-qardaşlarının bütün yükünü çiyninə götürərək onları böyüdüb boya-başa çatdıran övladlarımız yoxdur?!

Bu illər ərzində istisnasız olaraq heç bir televiziya kanalında Qarabağa həsr olunan, oradakı milli-mənəvi dəyərlərimizi təbliğ edən silsilə proqramlara rast gəlmədik.

Hansısa müəmmalı yanaşmaya əsasən indiyə qədər bu serialların birinin də ssenarisi Qarabağa həsr olunmayıb...

Həmin serialların birində də hansısa məcburi köçkün baş qəhrəman kimi canlandırılmayıb...

*Bax: səh. 6*

# Qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi üçün Azərbaycan Respublikası Hökuməti adından imzalanmış müqavilənin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 dekabr tarixli 2366 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Hökuməti adından Azərbaycan Respublikasının energetika naziri tərəfindən 2020-ci il dekabrın 29-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında Ərazi 1 və Xızı 3 Külək Enerjisi Layihəsi haqqında İnvestisiya müqaviləsi" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində göstərilən müqavilənin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2021-ci il*

# İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab Reuven Rivlinə

Hörmətli cənab Prezident!

Meron dağında keçirilən dini mərasim zamanı çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi son dərəcə sarsıtdı.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İsrail xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 aprel 2021-ci il*

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında iki qanun layihəsi müzakirə olunub



Aprelin 30-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan komitənin sədri Tahir Mirkişili Azərbaycan Prezidenti İlham Əliyevin Altıncı çağırış Milli Məclisin ilk iclasında söylədiyi proqram xarakterli nitqində parlamentə verdiyi tövsiyələrin Azərbaycan parlamentinin ötən dövrdəki fəaliyyətində rəhbər tutulduğunu bildirib.

Komitə sədri qeyd edib ki, bu gün birinci oxunuşda komitənin müzakirəsinə çıxarılan Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə iki qanun layihəsi də dövlət başçımızın müəyyənləşdirdiyi hədəflərə uyğun hazırlanıb.

Qanun layihələri Konstitusiya Məhkəməsi Plenumundan Milli Məclisə daxil olan tövsiyələr əsasında parlamentin sədri Sahibə Qafarovanın tapşırığı ilə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən yaradılmış işçi qrupun fəaliyyəti nəticəsində ərsəyə gətirilib. İrəli sürülən dəyişikliklərdə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının və ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı mülkiyyət hüququnun rəsmiləşdirilməsinin və əldə edilmiş əmlakın satışı zamanı əsas borc həcmində dövriyyənin vergidən azad olunmasının qanunvericiliklə dəqiq tənzimlənməsi nəzərdə tutulub.

İclasda Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, deputatlar Mahir Abbaszadə, Vahid Əhmədov, Elnur Allahverdiyev, Aydın Hüseynov, Rüfət Quliyev, Nurlan Həsənov, Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Mərkəzi Bankın baş direktoru Rəşad Orucov və parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış ediblər. Natiqlər təqdim olunan qanun layihələrinin hüquqi boşluqları aradan qaldırmaq və qanunvericiliyin təkmilləşdirilməsi məqsədi daşıdığını qeyd ediblər.

Tədbirdə qanun layihələri ətraflı müzakirə olunub, nəzərdə tutulan dəyişikliklərə müsbət münasibət bildirilib və deputatlar hər iki qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Məzahir Əfəndiyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov, Mərkəzi Bankın Hüquq Departamentinin direktoru Rəna Məlikova, Konstitusiya Məhkəməsinin Vətəndaşların qəbulu və şikayətlər şöbəsinin müdiri Anar Cəfərov, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin Vergi və gömrük siyasəti sektorunun müdiri Şaban Abdullayev və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan ilə Litva arasında beynəlxalq platformalarda əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb

Aprelin 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə işgüzar səfərdə olan Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqis ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında təkbətək formatda başlayan görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş formatda davam edib.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Litva arasında mövcud olan siyasi dialoqun yüksək qiymətləndirildiyini və bunun davam etdirilməsinin əhəmiyyətini bildirib. İkitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etməkdə olduğu və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcudluğu vurğulanıb.

Nazir Qabrielius Landsberqis Azərbaycan Respublikasının Prezidenti ilə keçirilən səmimi müzakirələri məmnunluqla qeyd edib. "Şərq tərəfdaşlığı" bölgəsinin Litva üçün strateji prioritet kəsb etdiyi və bu xüsusda dost ölkələr, o cümlədən Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının əhəmiyyəti vurğulanıb. Cari ildə diplomatik münasibətlərimizin 30 illiyinin qeyd olunduğunu xatırladan nazir Qabrielius Landsberqis əlaqələrin gələcək inkişaf yolunun planlaşdırılmasının önəmini ifadə edib. Tərəflər ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, humanitar, təhsil sahələrində, habelə beynəlxalq platformalarda əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli Bəyanatın həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməməsi, bölgədə sülh və təhlükəsizliyə təhdid törədən davranışları və digər məsələlər barədə məlumat verib. C.Bayramov habelə bəzi Avropa ölkələri və beynəlxalq institutlar tərəfindən nümayiş etdirilən ikili yanaşmanın qəbuledilməz olduğunu bildirib və sonuncular tərəfindən Ermənistanda yanlış illüziyalar yaradacaq bəyanatların verilməsi, davranışın sərgilənməsinin bölgədə barışıq və sülh şəraitində birgə yaşayışa xidmət etmədiyini vurğulayıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Görüşdən sonra nazirlərin iştirakı ilə birgə mətbuat konfransı keçirilib.

# İsraildə Azərbaycanın ticarət və turizm nümayəndəlikləri açılacaq

**İsrail şirkətləri Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak etməkdə maraqlıdır. İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarovun İsrailin xarici işlər naziri Qabi Aşkenazi ilə onlayn formatda görüşü keçirilib.**

M.Cabbarov Azərbaycan və İsrail arasında siyasi və iqtisadi münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə göstərdiyi dəstəyə, humanitar səylərə görə təşəkkürünü bildirib.

Görüşdə Azərbaycan-İsrail iqtisadi əməkdaşlığı barədə məlumat verilib, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində 90-dək İsrail şirkətinin uğurlu fəaliyyəti qeyd olunub. Bildirilib ki, iqtisadi əlaqələrin inkişafında, yeni təşəbbüslərə əsaslanan layihələrin icrasında Azərbaycan Respublikası hökuməti ilə İsrail Dövləti hökuməti arasında Birgə Komissiyanın, İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyəti önəmlidir. Əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşən iqtisadiyyat naziri Azərbaycanla İsrail arasında azad olunmuş ərazilərin bərpası, enerji, səhiyyə, investisiya, innovasiyalar, İKT, kənd təsərrüfatı, su sektorunun idarə edilməsi, turizm və sair sahələrdə əməkdaşlıq üçün böyük potensial olduğunu diqqətə çatdırıb. İsrailin xarici işlər naziri Q.Aşkenazi ölkələrimiz arasında əlaqələrin genişlənməsinin əhəmiyyətini vurğulayıb, İsrail şirkətlərinin azad edilmiş ərazilərin bərpasında iştirak etməkdə maraqlı olduğunu qeyd edib. Görüşdə ikitərəfli iqtisadi tərəfdaşlığın inkişaf etdirilməsi, pandemiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq və s. məsələlər barədə müzakirələr aparılıb.

Azərbaycan Respublikası hökuməti ilə İsrail Dövləti hökuməti arasında Birgə Komissiyanın 2-ci iclası da keçirilib. Hər iki tərəfdən müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda Hökumətlərarası Komissiyanın həmsədri, iqtisadiyyat naziri M.Cabbarov Azərbaycanın İsrail ilə dostluq və səmərəli tərəfdaşlıq əlaqələrini qeyd edib, dövlət başçılarının siyasi iradəsinin, ölkələrimizin böyük iqtisadi potensialının əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını vurğulayıb. Bildirilib ki, iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində uğurlu əməkdaşlıq həyata keçirilir. İsrailin Azərbaycanın əsas ticarət tərəfdaşlarından olduğunu qeyd edən iqtisadiyyat naziri qarşılıqlı ticarət dövriyyəsinin artırılması, strukturunun şaxələndirilməsi barədə fikirlərini bölüşüb, yaxın zamanlarda İsraildə ölkəmizin ticarət və turizm nümayəndəliklərinin açılmasının planlaşdırıldığını diqqətə çatdırıb.

Azərbaycanda rəqəmsallaşmanın inkişafına böyük önəm verildiyini qeyd edən iqtisadiyyat naziri 2030-cu ilədək Azərbaycanın sosial-iqtisadi inkişafına dair milli prioritetləri barədə məlumat verib, ölkəmizin müasir innovasiyalar məkanına çevrilməsinin qarşıya hədəf kimi qoyulduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, ölkəmizdə "ağıllı texnologiyalar"ın tətbiqi işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasına, Böyük Qayıdışa töhfə verəcək.

Azərbaycanın əlverişli biznes və investisiya mühitini vurğulayan iqtisadiyyat naziri İsrail sahibkarlarını ölkəmizdə yaradılmış sənaye zonalarına investisiya yatırmağa, dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihələrdə iştiraka dəvət edib.

Hökumətlərarası Komissiyanın həmsədri, İsrailin xarici işlər naziri Q.Aşkenazi ölkəsinin Azərbaycanla əməkdaşlığa önəm verdiyini, iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın davamlı inkişaf etdiyini qeyd edib.

İclasda iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətləri barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə Hökumətlərarası Komissiyanın üzvləri əməkdaşlığın inkişafı imkanlarına dair fikirlərini bildiriblər.

Azərbaycan Respublikası hökuməti ilə İsrail Dövləti hökuməti arasında Birgə Komissiyanın 2-ci iclasının yekunlarına dair protokol imzalanıb. Sənədi Hökumətlərarası Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin xarici işlər naziri Qabi Aşkenazi imzalayıblar. Sənəddə enerji, səhiyyə, ticarət, investisiya, rəqəmsallaşma, kənd təsərrüfatı, qida təhlükəsizliyi, standartlaşdırma, su təsərrüfatı, turizm, təhsil, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

# "Təhsil, innovasiyalar və iqtisadiyyat" mövzusunda panel müzakirəsi keçirilib

"Təhsil, innovasiyalar və iqtisadiyyat" mövzusunda təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin iştirakı ilə panel müzakirəsi keçirilib.



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, panel müzakirəsində çıxış edən təhsil naziri Emin Əmrullayev təhsilin nəticələrinin uzun müddətdə iqtisadi artım tempini müəyyən edən əsas element olduğunu vurğulayıb. Nazir bununla bağlı beynəlxalq qiymətləndirmə tədqiqatlarından nümunələri diqqətə çatdırıb. Bu sahədə Azərbaycanın son illər ərzində uğurlu nəticələrini qeyd edən təhsil naziri eyni zamanda ümumtəhsil müəssisələrində rəqəmsal əhatəni təmin edəcək fiberoptik şəbəkələşmə layihəsindən danışıb. 2021-2025-ci illəri əhatə edəcək bu şəbəkə nəticəsində ölkə üzrə şagirdlərin 75 faizi fiberoptik qoşulma ilə genişzolaqlı internet xidmətindən istifadə edə biləcək ki, bu da təhsildə rəqəmsal əlçatanlılığı artıracaq.

Nazır çıxışında "Rəqəmsal bacarıqlar" layihəsinin əhatə dairəsinin genişləndirilərək növbəti tədris ilində bu layihəyə 200 min məktəblinin cəlb olunacağını deyib. Həmçinin təhsil naziri kibertəhlükəsizlik üzrə qısamüddətli kursların effektiv nəticə verdiyini bildirib.

Təhsil naziri növbəti tədris ilindən fəaliyyətə başlayacaq SABAH magistraturasında müasir əmək bazarının tələblərinə cavab verən yeni nəsil ixtisas imkanlarından da söz açıb.

Təhsil naziri Emin Əmrullayev hər iki həmkarına bu əhəmiyyətli tədbirə qatıldıqları üçün təşəkkür edib və birgə əməkdaşlığın ümumi məqsədlərə çatmaq istiqamətində vacib halqa olduğunu vurğulayıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışında dövlət başçısının rəqəmsallaşma, innovasiya sahəsinə xüsusi önəm verdiyini vurğulayıb və bu baxımdan müzakirə olunan layihənin əhəmiyyətini qeyd edib. İnsan kapitalı və müasir innovasiyalar məkanının yaradılması "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in əsas istiqamətlərindəndir. İqtisadiyyat naziri yeni qabaqcıl texnologiyaların sürətli mənimsənilməsi, onların vətəndaşlara və biznes maraqlarına xidmət etməsi üçün həm dövlət qurumlarının, həm də biznesin Dördüncü Sənaye İnqilabının yeni çağırışlarına çevik uyğunlaşmalı olduğunu diqqətə çatdırıb. Bu baxımdan rəqəmsal bilik və bacarıqların inkişaf etdirilməsi, dövrün tələblərinə uyğun kadr potensialının formalaşdırılması vacib amillərdəndir. İqtisadiyyatın bütün sahələrində rəqəmsal bilik və bacarıqlara tələb getdikcə artır.

Mikayıl Cabbarov innovativ inkişaf üçün nazirliyin üç istiqamətdə fəal iş aparacağını bildirib: "Birinci istiqamət dövlət resurslarının bu və digər sahələrə istiqamətləndirilməsinə dəstək verilməsidir. Digər istiqamətlər isə biznes dünyası ilə dialoqun aparılması və özəl sektora dəstəyin göstərilməsi, vergi güzəştlərindən tutmuş, müxtəlif təşviqlərə qədər sistemli yanaşmalar olacaq".

Tədbirdə çıxış edən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev bildirib ki, innovasiyalara aparan yol yalnız təhsil və elmdən keçir. Rəhbərlik etdiyi İnnovasiya İşçi Qrupu çərçivəsində həyata keçirilən işlərdən danışan nazir Azərbaycanda innovasiyaya baxış mövzusunda fikirlərini bölüşüb. "Biz innovativ mühiti üç qatdan ibarət bir piramida kimi təsəvvür edirik. Piramidanın alt, ən zəruri qatını ölkədə sağlam dövlət idarəetmə sistemi təşkil edir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar bu təməlin möhkəmləndirilməsini təmin etmişdir və bu sahədə islahatlar davam edir. Piramidanın orta təbəqəsi elm və texnologiya tutumlu emal sənayesinin inkişafıdır". Nazir bu baxımdan iki məsələnin vacibliyini vurğulayıb.

"Birincisi, elmi tədqiqatların inkişafıdır. İnnovasiyaya aparan yol ixtiralarla zəngindir", - deyən Rəşad Nəbiyev qeyd edib ki, tədqiqatlara qoyulan sərmayə sürətli şəkildə artmalıdır. "Təhsil təkliflərini elmi araşdırmalarla gücləndirmək lazımdır - universitetlərin burada oynayacağı rol əhəmiyyətlidir. İkincisi, elm və texnologiya tutumlu emal sənayesinin inkişafıdır. Davamlı startap ekosistemi piramidanın üst qatını təşkil edir".

Rəşad Nəbiyev Milli İnnovasiya Strategiyasında bu məsələlərin nəzərə alındığını diqqətə çatdırıb.

Müzakirədə aidiyyəti dövlət qurumları ilə birgə özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələri də iştirak edib.

Tədbirin ikinci hissəsi sual-cavab sessiyası ilə davam edib.

# Azərbaycan-Türkiyə ikitərəfli hərbi-texniki əməkdaşlığının aktual məsələləri müzakirə edilib

Aprelin 30-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Müdafiə Sənayesi Komitəsinin sədri İsmail Demirin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyə Müdafiə Sənayesi Komitəsi, "STM", "ROKETSAN", "HAVELSAN" şirkətlərinin və "ASELSAN-Bakı" ofisinin rəhbər heyətlərini salamlayan müdafiə naziri ölkələrimiz arasında ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini, bu əlaqələrin daha da genişlənməsində dövlət başçılarının dostluq və qardaşlıq münasibətlərinin böyük rol oynadığını qeyd edib.

Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli hərbi-texniki əməkdaşlığının aktual məsələləri müzakirə edilərək müasir döyüş əməliyyatlarının aparılmasının yeni üsul və metodları, xüsusilə də Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi nəzərə alınmaqla ölkələrimiz arasında yeni birgə layihələrin həyata keçirilməsi yolları müəyyənləşdirilib. Əminliklə bildirilib ki, əsas diqqət qoşunlarımızın texniki təchizatının daha da gücləndirilməsinə yönəldiləcək.

Azərbaycan Ordusunun dünyanın ən müasir silah və hərbi texnikası, o cümlədən qabaqcıl informasiya texnologiyaları ilə təchiz edilmiş, geniş rabitə sistemlərinə malik peşəkar ordu kimi inkişaf etdirilməsi qoşunlarımızın gizli, operativ idarə olunmasını, onların manevr imkanlarının, ümumilikdə isə döyüş qabiliyyətinin artırılmasını təmin edəcək.

# Həmkarlar ittifaqlarında gənclərin iştirakı sürətlə artır

Aprelin 30-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib.

Qurumun sədri, deputat Səttar Möhbalıyev iclasın gündəliyi barədə məlumat verib.

Çıxışlarda qeyd olunub ki, ölkə iqtisadiyyatının müxtəlif sahələrində gender bərabərliyinin reallaşmasında həmkarlar ittifaqlarının iştirakı, habelə həmkarlar ittifaqlarının strukturlarında gender bərabərliyinin gözlənilməsi və qadınların rəhbər vəzifələrdə təmsil olunması vəziyyətinə görə, 2021-ci ilin 1 yanvar tarixə həmkarlar ittifaqları üzvlərinin sayında kişilərin 48 faiz, qadınlar isə 52 faiz təşkil edir. Ötən illə müqayisədə həmkarlar ittifaqı təşkilatlarının sayında dəyişikliklər müşahidə olunur ki, bu da ölkədə baş verən pandemiya şəraitində iqtisadi aktivliyin azalması ilə əlaqədar olaraq bir sıra idarə, müəssisə və təşkilatların ləğv olunması, yenilərinin yaranması, birləşməsi, o cümlədən struktur dəyişikliklərindən irəli gəlir. Həmkarlar ittifaqlarının üzvlərinin 50,8 faizi gənclər, 49,2 faizi gənc qadınlardır.

Hesabat ilində sahə həmkarlar ittifaqı orqanları və onların üzv təşkilatlarının səyi nəticəsində gender və qadın problemlərinə həsr olunmuş 34 seminar, "dəyirmi masa" və digər tədbirlər keçirildiyi, burada 500 nəfərə yaxın şəxsin, o cümlədən beynəlxalq səviyyəli təşkilatların iştirakı ilə təşkil edilmiş 5 tədbirdə 6 nəfər qadının iştirak etdiyi bildirilib. Bu da ötən illə müqayisədə bütün dünyada və Azərbaycanda COVID-19 infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədardır.

AHİK İcraiyyə Komitəsinin 15.07.2020-ci il tarixli qərarına əsasən, sahə həmkarlar ittifaqı orqanlarından 45 gəncdən 2019-cu il üzrə 19 nəfər gənc qadın "İlin peşəkar gənci" fəxri adına layiq görülüb. Qeyd olunan məlumatlardan sonra "Azərbaycan həmkarlar ittifaqlarının 2020-ci il üzrə gender statistikası haqqında" qərar müzakirələrdən sonra qəbul edilib. Qeyd olunub ki, artıq bir neçə ildir ki, həmkarlar ittifaqlarının gənclər şuraları fəaliyyət göstərir və gənc liderlər beynəlxalq təşkilatların keçirdikləri toplantılara dəvət edilirlər. Vurğulanıb ki, "İlin peşəkar gənci" fəxri adı gənclər şuralarının fəaliyyətinin yüksəldilməsinə, istedadlı gənclərin üzə çıxarılmasına, onlara həmkarlar ittifaqı təşkilatı tərəfindən diqqətin artırılmasına xidmət edir. Həmçinin 23 sahə həmkarlar ittifaqı orqanından 50 nəfər gənc işçinin sənədləri AHİK-ə daxil olduğu, onların fəaliyyətini əks etdirən məlumatların ümumiləşdirilərək təqdimat hazırlandığı bildirilib. Sonra AHİK-in İcraiyyə Komitəsi tərəfindən qərara alındı ki, əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adı verilsin və onlara Fəxri diplom, döş nişanı və vəsiqə təqdim edilsin, həmçinin onların ictimaiyyətə tanıdılması üçün bir sıra tədbirlər həyata keçirilsin.



Bildirilib ki, "Sağlam və təhlükəsiz iş şəraiti yaratmaq sahəsində ilin ən yaxşı müəssisəsi - 2020" adı uğrunda keçirilən müsabiqədə 1730-dan artıq müəssisə və təşkilat iştirak edib. 17 sahə həmkarlar ittifaqlarını təmsil edən 155 müəssisədən 37 qalib müəssisə və təşkilatın sənədləri mükafatlandırılma üçün AHİK-ə göndərilib.

Müzakirə olunan məsələlərə münasibət bildirən AHİK-in sədri, deputat Səttar Möhbalıyev qeyd edib ki, çalışmalıyıq rəhbər orqanlarda qadınların sayı artırılsın. Qadın kişi ilə bir yerdə işləyirsə, onların hüquqları da bərabər olmalıdır, bu, bütün məsələlərdə, xüsusən də əməkhaqqı sahəsində özünü göstərməlidir.

Ölkəmizin dünyada tanıdılması üçün idman sahəsinə hərtərəfli dəstəyin vacibliyinə diqqət çəkən AHİK sədri bildirib ki, hazırda idmançılarımız ölkəmizi tanıtdırmaq üçün səylə çalışırlar. Bu gün ölkə Prezidenti idman sahəsinə xüsusi diqqət və qayğı göstərir, pandemiyaya qədər ölkəmizdə müxtəlif növ beynəlxalq yarışlar keçirilirdi. Azərbaycan dünyada daha çox idman ölkəsi kimi tanınır. S.Möhbalıyev bunun üçün də həmkarlar təşkilatlarının idmançılara diqqət yetirməli olduğunu vacib hesab edib və xüsusilə vurğulayıb ki, bunun üçün idmanın kütləviliyi artırılmalı və onlar üçün hər bir şərait yaradılmalıdır.

AHİK sədri "İlin peşəkar gənci" müsabiqəsini keçirməkdə məqsədin savadlı, fəal gəncləri seçmək olduğunu bildirərək qeyd edib ki, qaliblərin sayını artırmaq, seçim məsələsində ədaləti ən yüksək səviyyədə qorumaq, ictimai sahədə fəal olan, həmkarlar ittifaqlarına üzv olanlara üstünlük verməliyik.

Konfederasiya sədri iş prosesində sağlam əmək şəraitinin yaradılmasının vacib olduğunu önə çəkib. Onun sözlərinə görə, Prezident İlham Əliyev dəfələrlə bildirib ki, fəaliyyətimizdə ən vacib məsələ xalqımızın sağlamlığıdır və biz də buna çalışmalıyıq. Sədr pandemiya başlayan zaman dövlətimizin xalqımızın sağlamlığı naminə bütün zəruri tədbirləri gördüyünü vurğulayıb, həmçinin koronavirusa qarşı peyvəndi ilk alan ölkələrdən olduğumuzu bildirib.

# Dövlət Miqrasiya Xidmətinin rəisi vətəndaşların müraciətini dinləyib

**Aprelin 30-da Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov vətəndaşların müraciətini onlayn formatda dinləyib.**

Dövlət Miqrasiya Xidmətindən (DMX) AZƏRTAC-a bildiriblər ki, müraciətlər, əsasən, miqrasiya xidmətləri, müvəqqəti və daimi yaşama icazələrinin verilməsi, vətəndaşlıq məsələləri, həmçinin işə qəbulla bağlı olub. Müraciətlərin əksəriyyəti yerində həllini tapıb. Xidmət rəisi qaldırılan digər məsələlərin qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

1923 *Azərbaycanın özü qədər əbədi* 2021

# Dünyanın ən böyük azərbaycanlısı

*Əvvəli 1-ci səh.*

Ulu Öndər XX əsrin ikinci yarısından etibarən yalnız ona xas olan bənzərsizlik və təkrarsızlıq, spesifik fenomenlik xüsusiyyətləri ilə həm özü dünya diplomatiyasının ön sıralarına ucalaraq bəşərilik qazandı, həm də Azərbaycanın dünyaya günəş kimi parlamasının möhkəm təməlini yaratdı.

Ümummilli Liderin 1969-cu il iyul ayının 14-də Azərbaycanda ilk dəfə siyasi rəhbərliyə gəlməsi qədirbilən Azərbaycan xalqını səmimi-qəlbdən məmnun etdi və bu yenilməz xalqın öz dahi liderinə qovuşmasının, onun ətrafında sıx sıralarla birləşməsinin təminatçısına çevrildi. Hələ gələcək möhtəşəm nailiyyətlərin ilk addımları atılan həmin dövrdə Azərbaycanın bütün sahələrində doğma, əməksevər xalqımızda milli dirçəlişə, özünüdərkə inamın, dövlət başçısına olan böyük ehtiramın yaranmasının möhkəm təməlləri qoyuldu. Ümummilli Lider keçmiş SSRİ dövründə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin inkişafını həmahəng surətdə ardıcıllıqla həyata keçirir, yeniliyə, tərəqqiyə sədd yaradan keçmişdən miras qalmış maneələri, lüzumsuz stereotipləri inamla dəf edir, aradan qaldırırdı. Onun düşünən beyni gecəli-gündüzlü istirahət bilmədən daim fəaliyyət göstərərək Azərbaycanın gələcəyi naminə yeni-yeni layihələr hazırlayır və dərhal da onların zəruriliyini hiss edib həyata keçirilmələrinə şərait yaradırdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan ən mütərəqqi və müasir islahatların tətbiqi, həyata keçirilməsi meydanına çevrilmişdi.

XX əsrin 70-80-ci illərində həmin siyasətin tərkib hissəsi kimi elm, təhsil və səhiyyə sistemlərinin də yüksəlişi, bu sahələrin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirlərin gerçəkləşməsi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük rəhbər həmin dövrdə ilk növbədə tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışmış, bununla da səhiyyə, o cümlədən tibb elmi, tibb təhsili və səhiyyə sahələrində mövcud durğunluğun aradan qaldırılmasına nail olmuşdur. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev respublikamızın səhiyyə sistemi sahələrinin beynəlxalq miqyasa çıxmasına, onların dayanıqlı və sabit inkişafına əlverişli şərait yaratmışdır.

Həmin illərdə Azərbaycanın sözügedən sistemlərində ölçüyəgəlməz islahatlar aparılır, ozamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovet İttifaqında sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilir, tibbi kadr hazırlığında öz sözünü cəsarətlə deyə bilirdi. Başqa sözlə, tibbi fənlərin diplomaqədərki və diplomdansonrakı tədrisinin, tələbələrin və məzunların peşə hazırlığının, eləcə də abituriyentlərin instituta qəbulunun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunda internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı, daha sonralar Tibbi-biologiya fakültəsi və dekanlığı, Hərbi-tibb fakültəsi və dekanlığı, mətbuat və informasiya xidməti və digər köməkçi şöbələr yaradılmışdır.

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə yüzlərlə azərbaycanlı gənc alimin müxtəlif ixtisaslar üzrə keçmiş ittifaq səviyyəsində doktoranturaya qəbul edilməsinə də nail olmuşdur. Tibb sahəsində mütəxəssislərin yeni nəslinin nümayəndələri yetkin tədqiqatçılar kimi vətənə qayıdıb fəaliyyətlərini genişləndirirdilər. Zərifə Əliyeva, İbrahim Topçubaşov, Həmidbəy Mahmudbəyov, Tamerlan Əliyev, Tağı Tağızadə, Adilə Namazova, Böyükkişi Ağayev və başqalarının adları bu gün səhiyyəmizin inkişaf tarixində ən mötəbər yerlərdən birini tutur, onların elmi məktəbləri dərindən öyrənilir. Eyni zamanda həmin illərdə tibbin müxtəlif elmi istiqamətləri - cərrahiyyə, terapiya, mikrobiologiya, urologiya, oftalmologiya, allerqologiya və immunologiya, pediatriya, kardiologiya, onkologiya, anesteziologiya və reanimatologiya, epidemiologiya, ginekologiya, stomatologiya, morfologiya və s. üzrə beynəlxalq səviyyəli elmi-tədqiqat işləri aparılıb, alınan nəticələr dünya alimləri tərəfindən yüksək dəyərləndirilibdir.

Ulu Öndər o dövrdə respublikanın səhiyyə sisteminin və Azərbaycan Dövlət Tibb İnstitutunun maddi-texniki bazasının möhkəmləndirilməsini də diqqətdə saxlayırdı. Həmin illər yüzlərlə iri müasir səhiyyə obyektləri inşa edilmiş, respublikada olan tibb müəssisələrinin yarıdan çoxu yeniləşdirilmiş, elmi-tədqiqat institutları, sağlamlıq və müalicə-profilaktika müəssisələri fəaliyyətə başlamışdır. Neyrocərrahiyyə Mərkəzi, Diaqnostika Mərkəzi, Toksikoloji Mərkəz, Əlillərin Reabilitasiya Mərkəzi, Kliniki Urologiya Xəstəxanası, habelə kimya-əczaçılıq zavodu və müasir profilli tibb müəssisələri açılmış, Elmi-Tədqiqat Oftalmologiya, Elmi-Tədqiqat Onkologiya institutları üçün müasir tipli tam təchizatlı binalar tikilib istifadəyə verilmişdir. Yeni açılan tibb müəssisələrini yüksəkixtisaslı kadrlarla təmin etmək üçün Azərbaycan Dövlət Tibb İnstitutuna tələbə qəbulunun sayı artırılmış, ucqar kənd rayonlarından gələn abituriyentlərə güzəştlər tətbiq edilmiş, onlar üçün hazırlıq kursu dekanlığı təşkil edilərək fəaliyyətə başlamasına münasib şərait yaradılmışdır.

Bir faktı da xatırlatmaq yerinə düşər: 1980-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun 50 illik yubileyi Ulu Öndərin iştirakı ilə keçirilmiş və bu münasibətlə institutun əməkdaşlarının bir qismi fəxri adlara, dövlət təltiflərinə layiq görülmüşdür. Akademik Mustafa bəy Topçubaşovun keçmiş SSRİ-nin ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi də Ulu Öndərin səyi nəticəsində mümkün olmuşdur. Azərbaycanın belə görkəmli alimlərinin əvvəl SSRİ miqyasında, sonra isə beynəlxalq miqyasda tanıdılması bütövlükdə Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin tanıdılması demək idi.



Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi dövrün tələbə-gənclərindən olduğuma görə onun respublikada gənclərə göstərdiyi qayğıkeşliyindən mənə də pay düşmüş və bunun sayəsində mən 1974-cü ildə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin aspirantı olmuşdum. O vaxtlar Moskvanın müxtəlif ali tibb təhsili müəssisələrində mənim kimi gənclər çox idi və Ümummilli Liderin gənclər üçün yaratdığı əlverişli şərait hər birimizin həyatının mənasına çevrilmişdi.

Heydər Əliyevin 1983-cü ildə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə, Azərbaycan tibb elminə, tibb təhsili sisteminə olan nəzarətini, diqqətini nəinki azaltmış, əksinə, daha da artırmışdı. O, Moskvada çalışdığı illərdə SSRİ-nin səhiyyə sahəsinə də nəzarət edirdi və Sovet İttifaqının yüksəkrütbəli tibb alimləri, səhiyyə işçiləri ilə tez-tez görüşlər keçirir, səhiyyədə olan problemlərin müzakirəsini aparır, bu problemlərdən irəli gələn məsələlərin həlli yollarını peşəkarcasına göstərirdi.

O vaxtlar SSRİ səhiyyə sisteminin və dünya tibb elminin görkəmli nümayəndələrindən olan akademik N.N.Bloxin həm də mənim çalışdığım SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin baş direktoru idi və o, hər dəfə Heydər Əliyevin SSRİ səhiyyə idarələri başçılarının iştirakı ilə keçirilən toplantılardakı çıxışlarından sonra Onkoloji Elmi Mərkəzin işçilərinin müşavirəsini keçirərək verilən tapşırıqları əməkdaşlara çatdırardı. Akademik N.N.Bloxin adətən ünsiyyətdə olduğu adamlar haqqında tərifli sözlər deməkdə bir qədər "xəsislik" edərdi. Lakin o, Heydər Əliyev haqqında danışanda ürəkdən gələn ən xoş sözləri səmimiliklə söyləməkdən çəkinməzdi. Ulu Öndərin çıxışları akademikdə sözün həqiqi mənasında böyük təəssürat oyatmışdı. Akademik N.N.Bloxin deyirdi ki, Heydər Əliyev səhiyyənin problemlərini, onlardan çıxış yollarını ən titullu səhiyyə mütəxəssislərindən də gözəl bilir və ona görə də ona böyük hörmət və ehtiramla yanaşıram. Vətəndən uzaqlarda yad bir millətin dünya şöhrətli aliminin həkimlər, alimlər, səhiyyə işçiləri qarşısında vətənimin böyük oğlu haqqında ağızdolusu xoş sözlər deməsi məni və mənim kimi azərbaycanlı gəncləri qürurlandırır, fəxarətləndirirdi.

Akademik N.N.Bloxindən sonra Rusiya Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin baş direktoru vəzifəsində çalışan akademik N.N.Trapeznikov Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bir neçə dəfə Bakıda olub. Hər dəfə Heydər Əliyev şəxsən tanıdığı akademik N.N.Trapeznikovu qəbul edərkən Azərbaycan onkoloqlarından akademik Cəmil Əliyevi və məni həmin görüşlərə dəvət edər, onunla səhiyyənin problemləri, onkologiya elminin müasir səviyyəsi haqqında söhbətlər keçirərək müzakirələr aparar, təmkinlə bizim təkliflərimizi dinləyər, bu təkliflərə öz lakonik, məntiqli münasibətini bildirərdi.

Heydər Əliyev səhiyyənin, tibb elminin başqa sahələrində fəaliyyət göstərən digər aparıcı mütəxəssislərlə də sıx əlaqələr saxlayar, onların diqqətini Azərbaycana cəlb edər, bununla da Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin inkişafına güclü təkan verilməsinə, möhkəm zəmin yaradardı. Ulu Öndər 1998-ci il sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin yeni 11 mərtəbəli tədris binasının açılışında çıxış edərkən Azərbaycan səhiyyəsinin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdiyi saysız-hesabsız amillərə toxunaraq demişdir: *"Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm... Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm Onkoloji Mərkəzin, həm Kardioloji Mərkəzin, həm Ürək Cərrahiyyəsi Mərkəzinin, həm Oftalmoloji Mərkəzlərinin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım".*

Heydər Əliyevin xarici ölkələrdə oxutdurduğu gənclər indi Azərbaycanın aparıcı mütəxəssisləridir. Onun gördüyü bu işin bəhrəsi Azərbaycan Tibb Universitetinin timsalında da özünü daha dolğun şəkildə göstərir. Tarixi dəlillər sübut edir ki, bu ali tibb təhsili ocağı yarandığı gündən həmişə milli kadr qıtlığından əziyyət çəkib. Lakin indi tam əminliklə deyirəm ki, həm mənim həyatımda, həm ölkəmizin tibb kadrlarının, həm də bütövlükdə Azərbaycan Tibb Universiteti kollektivinin həyatında əsaslı rol oynayan Ulu Öndərin sayəsində Azərbaycanda tibb elmi və tibb təhsili sahəsinin, eləcə də Azərbaycan səhiyyəsinin bütün sahələri üzrə çox sanballı, yüksəksəviyyəli milli kadrlar yetişib və onlar öz məktəblərini yarada biliblər. Tibb elmi və tibb təhsili sahəsində beynəlxalq səviyyəli mütəxəssis məktəbləri yaratmaq o qədər də asan məsələ deyildi. Belə məktəblər bir ilin, beş ilin ərzində yarana bilməz. Əgər Azərbaycanda səhiyyə sahəsində, tibb elmi, tibb təhsili sahələrində bu cür fundamental məktəblər yaranıbsa, demək Heydər Əliyev ideyalarının çiçəklənməsi, xoş bəhrələr verməsi haqqında ağızdolusu danışmağa haqqımız var. İndi Azərbaycanın milli tibb kadrları nəinki ölkəmizdə, hətta dünyanın aparıcı tibb müəssisələrində də böyük uğurla fəaliyyət göstərirlər. Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində tibb mütəxəssislərimizin xaricə ezam olunmasının dünya azərbaycanlılarının maddi və mənəvi dayağının, Azərbaycan diasporunun möhkəmlənməsinə zəmin yaratmasının mənim həyatımda baş verən dəyişikliklərlə sıx əlaqəsi var. Çünki mən də dahi Heydər Əliyevin qayğıkeşliyi ilə qaynaqlanan bu elin, bu millətin, bu vətənin övladlarından, onun zərrələrindən biriyəm.

Heydər Əliyev ideyaları ölkəmizin bütün sahələrində, o cümlədən ictimai və iqtisadi-siyasi, milli-ənənəvi və mədəni-kütləvi, elmi-maarifləndirici və sosial-müdafiə sahələrində əsaslı dönüş yaranmasının başlıca istiqamətverici qüvvəsi kimi avanqardlığını hər zaman saxlamaqdadır. XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi regionda və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq yeni dinamik inkişaf mərhələsinə qədəm qoyması məhz Heydər Əliyevin uzaqgörən siyasətinin, dərin islahatlar strategiyasının nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ulu Öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürübdür. Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli - xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçirib, 1993-cü ildən dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstəribdir.

Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə uğurlu daxili və xarici siyasət yeridib, dünyanın güclü dövlətlərini Azərbaycanla hesablaşmaq, onun konsepsiyasına hörmətlə yanaşmaq faktı qarşısında qoyub. Nəticədə yeni dünya sistemində meydan sulamaq cəhdində olan güc mərkəzləri arasında gedən çəkişmələrin pərdəarxası mahiyyətinə müvafiq şəkildə məntiqli xarici siyasət həyata keçirən müstəqil Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilib, ölkəmizin regionda icra edilən bütün transmilli layihələrdə iştirakı təmin olunub. Azərbaycanın Heydər Əliyev siyasi kursuna əsaslanmaqla həyata keçirdiyi daxili siyasət də ümumən bu prinsiplərə əsaslanıb, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas hədəflərinə çevrilib. Azərbaycan ötən illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda demokratikləşmə xəttinə, Avroatlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə də Qərbin diqqətini cəlb edib, Avropa məkanında etibarlı tərəfdaş imici qazanıb. Ölkəmizin beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini də diqqət mərkəzində saxlayan Ümummilli Lider bu istiqamətdə mühüm islahatlar həyata keçirib. Böyük rəhbər hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulayıb, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış edibdir.

Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoyubdur ki, bu da ölkəmizdə mövcud olan milli ideologiyanın təsir gücünün möhkəmliyinə dəlalət edən amillərdəndir. Aqillərin dediyi kimi, milli ideologiyası olmayan xalqın uğurlu gələcəyi ola bilməz. İdeologiya hər bir xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindən olub, onun təfəkkür, adət və inanclar sisteminin məcmusu kimi özünü göstərir. Ümummilli Liderin şəxsiyyət kimi böyüklüyü həm də onun bütün idarəçiliyi boyu azərbaycanlı olması ilə fəxr edib qürur duymasında, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi.

Ümummilli Lider müstəqil Azərbaycana rəhbərliyi dövründə məhz bu zəngin potensiala, elmi və maddi-texniki bazaya istinad edərək səhiyyə islahatlarını da uğurla həyata keçirib. 1993-cü ilin iyun ayında - mürəkkəb bir dövrdə respublika rəhbərliyinə qayıdan Heydər Əliyev səhiyyə sistemində də mövcud problemlərin həlli istiqamətində ardıcıl islahatlar aparıb. Səhiyyə sahəsinə dövlət büdcəsindən ayrılan vəsaitlər tədricən artırılıb, onun fəaliyyətini tənzimləyən 10-dan çox qanun qəbul edilib, habelə Azərbaycan bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşularaq vətəndaşların sağlamlığının təminatı ilə bağlı üzərinə mühüm öhdəliklər götürüb. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının 41-ci maddəsində sağlamlığın qorunması hüququ birmənalı şəkildə təsbit edilibdir. Həmin maddədə deyilir: *"Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır".*

1993-2003-cü illərdə Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" və s. qanunlar, eləcə də "Dövlət sığortası haqqında" əsasnamə qəbul olunub. Bundan başqa, 1993-cü ildə Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatının poliomielitə qarşı mübarizə, 1995-ci ildə "MEKAKAR" proqramlarına qoşulub. 1998-ci il martın 13-də isə Heydər Əliyev "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzalamaqla, bu sahənin inkişafına böyük töhfə verib. 1993-2001-ci illərdə elmi-tədqiqat institutlarının işində və elmi araşdırılmaların təşkilində də müsbət dəyişikliklər olub.

Ulu Öndərin tibbi kadrların hazırlanması sahəsində ixtisaslaşmış təhsil və elm məbədi olan Azərbaycan Tibb Universitetinə diqqət və qayğısını da xatırlatmaq istərdik. Ölkəmizin bütün sahələrində olduğu kimi, Azərbaycan səhiyyə sistemi, o cümlədən Azərbaycan Tibb Universiteti müstəqilliyin ilk illərindən özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il sentyabrın 28-də Ulu Öndərin ATU-nun yeni tədris binasının açılışında şəxsən iştirak etməsi isə bu elm ocağının tarixində ən unudulmaz hadisələrdən biri kimi qalmışdır. Heydər Əliyev 2000-ci ildə Azərbaycan Tibb Universitetinin 400 yerlik akt zalının açılışında, eləcə də universitetin yaradılmasının 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə də iştirak etmişdir. Mərasimdə çıxış edən Heydər Əliyev yeni dövrdə tibb təhsilinin qarşısında duran vəzifələrdən söz açmışdır.

Onu da qeyd edək ki, Azərbaycanın müharibə şəraitində olduğunu nəzərə alan Ümummilli Liderin göstərişi ilə 2000-ci ildə ATU-nun nəzdində strateji əhəmiyyətli hərbi-tibb fakültəsi yaradılmışdır. Həmin illərdə Azərbaycan Tibb Universiteti Qara dəniz hövzəsiətrafı Ölkələrin Ali Məktəblər Birliyinin, Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçilmişdir. Heydər Əliyevin qayğıkeşliyi sayəsində 2002-ci ildə Azərbaycan Tibb Universiteti nəzdində ilk klinika - Stomatoloji klinika təşkil edilmiş, bununla da universitetin klinikalarının yaradılması ənənəsinin bünövrəsi qoyulmuşdur. Bu gün həmin klinika istər təcrübəli kadr potensialına, istərsə də müasir maddi-texniki bazasına görə Azərbaycanda aparıcı tibb müəssisələri sırasındadır. Tibb Universitetinin stomatoloji kafedraları məhz həmin klinikada yerləşir, orada ən müasir aparat və alətlərdən istifadə edilməklə, müxtəlif əməliyyatlar icra olunur. Əminliklə demək olar ki, maddi-texniki bazasına görə bu klinika MDB məkanında öncül yerlərdən birini tutur.

Məlumdur ki, 2003-cü ilin oktyabrında ölkəmiz üçün zamanın çağırışlarına adekvat olan yeni dövr başlanıb, Azərbaycan öz tərəqqisinin daha sürətli mərhələsinə qədəm qoyub, iqtisadi strukturun intensiv formalaşması prosesinə start veribdir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafına, əhalinin sosial müdafiəsi sahəsində tarixi nailiyyətlər əldə etməsinə gətirib çıxarıbdır. Fəaliyyətində ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvü vəhdətinə nail olan İlham Əliyevin qarşıya qoyduğu əsas məqsəd və vəzifələr sırasında əhalinin həyat səviyyəsinin yüksələn xətt üzrə inkişaf etdirilməsi, ölkədə yoxsulluq probleminin birdəfəlik həllinə nail olunması, insanların layiqli həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının qorunması prioritetlik təşkil edən məsələlərdəndir. Bu problemlərin həll edilməsi və həyata keçirilməsi Prezidentin qayğıkeşliyi sayəsində Milli Məclisin Səhiyyə Komitəsinin, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, eləcə də digər tibb müəssisələrinin birgə fəaliyyətləri ilə yerinə yetirilir. Məhz bunun nəticəsidir ki, sürətli inkişaf hər bir ölkə vətəndaşının, ailənin həyatında özünü qabarıq şəkildə büruzə verir.

Beynəlxalq miqyasda da açıq etiraf olunduğu kimi, ölkəmizdə son bir neçə ildə əhalinin həyat səviyyəsi davamlı olaraq yüksəlib, insanların maddi gəlirləri mütəmadi olaraq artırılıb, sosial və digər xidmətlər əsaslı kəmiyyət və keyfiyyət dəyişikliyi ilə müşayiət edilibdir. Prezident İlham Əliyevin sosial siyasətində nəticəyə deyil, problemləri yaradan səbəblərə qarşı mübarizəyə diqqət yetirilir və bu səbəbləri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilir, müvafiq dövlət proqramları qəbul olunur. Problemlərə bu cür kompleks yanaşma, onları doğuran səbəblərin aradan qaldırılması mümkün neqativ nəticələrin baş verməsinin qarşısını alır.

İqtisadiyyatın sahəvi və coğrafi şaxələndirilməsi, bunların konkret dövlət proqramları ilə təminatı da Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasətin vacib məqamlarındandır. Dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin sosial müdafiə, elm, təhsil, səhiyyə və sair sahələrdə qəbul edilmiş məqsədli dövlət proqramlarının icrasına yönəldilməsi bunun real təsdiqidir. Ölkə rəhbərliyinin milli səhiyyə sisteminə xüsusi diqqət və qayğısı daim yaxından hiss edilir. Bu siyasətin nəticəsidir ki, son illər ölkəmizin bütün səhiyyə obyektlərinin, tibb elmi və tibb təhsili müəssisələrinin maddi-texniki bazası, infrastrukturu müasirləşib, elmi potensialı daha da güclənib və icbari tibbi sığortanın tətbiqi nəticəsində hər kəs yüksəksəviyyəli tibbi xidmətlə təmin olunub.

Bu istiqamətdə aparılan işlərə müvafiq olaraq Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində 2007-ci ildə ATU-da daha bir möhtəşəm klinika - Onkoloji Klinika açılıb. Bu da ölkəmizdə onkoloji xidmətin, eləcə də tibb elmi və tibb təhsilinin inkişafına güclü təkan verib. İlham Əliyevin 11 sentyabr 2007-ci il tarixində imzaladığı "Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının yaradılması haqqında" sərəncamı da dövlət başçısının təhsil və səhiyyə məsələlərinə necə böyük həssaslıqla yanaşdığını təsdiqləyir. Universitetin cəmiyyətdəki yerini yüksək dəyərləndirən Azərbaycan Prezidenti hələ 2010-cu il aprelin 28-də "Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Universitetin 80 ilik yubileyi ilə əlaqədar dövlət başçısının və ölkəmizin birinci vitse prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə 2010-cu ilin oktyabr ayında bu ali təhsil ocağının ən müasir standartlara cavab verən Tədris-Terapevtik Klinikasının təntənəli açılışı olmuşdur. Prezidentin 2008-ci il 13 mart tarixli sərəncamı əsasında universitetin Cərrahiyyə Klinikası da inşa edilmiş və 2013-cü il sentyabrın 12-də klinikanın təntənəli açılış mərasimi keçirilmişdir. 500 çarpayılıq Tədris-Cərrahiyyə Klinikası dövlətimizin təkcə bu ali təhsil ocağının deyil, bütövlükdə Azərbaycan Respublikasının səhiyyə sisteminin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilmiş diqqət və qayğısının əyani göstəricisidir.

2011-2012-ci tədris ilində Azərbaycan Tibb Universiteti kollektivin həyatında daha bir yenilik baş verdi - yolunu səbirsizliklə gözlədiyimiz daha bir arzumuz yerinə yetdi. Belə ki, ATU-da diplomdansonrakı hazırlığın rezidentura sisteminə keçidi baş tutdu. Bütün bunlar bir daha sübut edir ki, Ulu Öndər Heydər Əliyevin mütərəqqi ideyalarının doğma vətənimizin, müstəqil Azərbaycan Respublikasının həyatında yaratdığı uğurlu dəyişikliklər Prezident İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir.

Bu gün Azərbaycan müasir, qüdrətli və dinamik inkişaf edən ölkədir. Bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahələrində davamlı inkişaf müşahidə edilir. Xüsusilə səhiyyə sahəsində uğurlu addımlar atılır, bu sahənin inkişafı üçün bütün imkanlar yaradılır. Bunlardan biri də icbari tibbi sığortanın tətbiqidir. Ölkəmizdə mərhələli şəkildə həyata keçirilən icbari tibbi sığorta artıq bütün ölkə üzrə tətbiq olunur. İcbari tibbi sığortanın tətbiqində yüksək maddi-texniki bazaya malik olan səhiyyə müəssisələrinin əhəmiyyəti böyükdür. Ölkəmizdə son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Səhiyyənin xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir.

Ölkəmizdə səhiyyənin səviyyəsinin yüksəlməsi son elmi texnoloji yeniliklərin tətbiqi sahəsində mümkün olub. Məhz pandemiya dövründə ölkə səhiyyəsinin bu duruma adekvat olması reallığı əks etdirir. Koronavirus pandemiyası dövründə bu sahədə görülən işlər, o cümlədən yeni tibb müəssisələrinin açılması ölkə səhiyyəsi ilə bağlı mənzərənin açıq təzahürüdür. Koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığının qorunması məqsədilə Prezident İlham Əliyevin rəhbərliyi ilə virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlər həyata keçirilməyə başlanmışdır. Çünki Azərbaycan Prezidentinin bütün istiqamətlərdə həyata keçirdiyi siyasətin mərkəzində insan amili dayanır və bu siyasət Ulu Öndər Heydər Əliyevin idarəçilik ənənələrinin davamıdır. Dövlət başçısı tərəfindən aparılan islahatlar çərçivəsində qanunvericilik işinin tənzimlənməsi və bu işin əlaqələndirilərək icra olunmasını Milli Məclisin Səhiyyə Komitəsinin, Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə fəaliyyətləri ilə yerinə yetirilir.

*Anadan olmasının 98-ci ildönümünü qeyd etdiyimiz Ümummilli Lider, müstəqil dövlətimizin qurucusu və memarı Heydər Əliyev Azərbaycan xalqının tarixində şanlı salnamələr açmışdır. Bu gün Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət atası kimi hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir.*

**Əhliman ƏMİRASLANOV,**
**akademik, SSRİ Dövlət mükafatı laureatı,**
**Milli Məclisin Səhiyyə Komitəsinin sədri**

# Vətən müharibəsi qələbəsində milli-mənəvi dəyərlərimizin rolu



**Qaçqın və köçkünlərimiz üçün dövlətimiz yeni şəhərciklər saldı, müasir evlərlə təmin etdi, çadır şəhərciklər ləğv olundu, sosial müdafiələrini gücləndirdi. Amma o insanlar hər zaman Qarabağ, doğma yurd dedilər. Qarabağı heç görməmiş gənc nəsil yetişdi. Onlar da Qarabağa qayıtmaq arzularını hər zaman bildirdilər. 27 sentyabrda Ali Baş Komandan xalqa çağırış etdi. Hamı birləşdi, Vətən, torpaq uğrunda ölümə hazır olduqlarını bildirdilər.**

Bu gün torpaqlarımız işğaldan azaddır. Amma azad olunmuş bütün yaşayış məntəqələrimiz xarabazarlığa çevrilmişdir. 30 ilə yaxın didərgin düşmüş o insanlar yurdlarının ermənilər tərəfindən vəhşicəsinə dağıdılmasına baxmayaraq, azad olunmasına sevinirlər. Ora səfər edən məcburi köçkünlər dağıdılmış evlərinin, məzarların daşlarını qucaqlayır, yerə əyilib torpağını öpürlər. Budur soydaşlarımızın milli-mənəvi dəyərlərimizi hər şeydən üstün tutması. Vətənə bağlılıq idi bizi qələbəyə aparan.

Tariximizin ən şərəfli səhifələrindən biri, son 200 ildə ilk dəfə ərazi bütövlüyümüzün təmini kimi Zəfər salnaməmizə çevrilmiş 44 günlük Vətən müharibəsi hər bir azərbaycanlının qürur mənbəyidir. Ordumuzun gücü, Prezidentimizin qətiyyəti, xalqımızın birliyi, cəmiyyətimizin həmrəyliyi 2020-ci ili Azərbaycan üçün Qələbə ilinə çevirdi. 1991-ci ildə Ulu Öndər Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu həmrəyliyimiz, 2020-ci ildə uzun illərdir həsrətində olduğumuz torpaqlarımızın azad edilməsində öz əməli təcəssümünü tapdı. Bu birlik və həmrəylik Azərbaycan xalqının ən böyük mənəvi sərvətinə çevrildi.

Təbii ki, 44 günlük Vətən müharibəsində əldə olunmuş şanlı Zəfər Azərbaycan dövləti və xalqı üçün yeni bir gələcək, yeni bir inkişaf mərhələsi yaradır. Bu qələbəyə gedən yol isə hər saatı, hər anı hesablanmış, planlaşdırılmış bir yol oldu. Bu qələbəni təmin edən amillərdən danışarkən bir çox məqama toxunmaq gərəkdir. Möhtərəm Prezidentin dövlətin iqtisadi gücünü qalibiyyət formuluna çevirmə bacarığı, diplomatik müstəvidə qazanılmış uğurlar, bir zamanlar nəinki haqq səsi eşidilməyən, hətta məruz qaldığı soyqırımlara belə etinasız yanaşılan Azərbaycanın dünya birliyinə inteqrasiyası, bir sıra aparıcı təşkilatlarda uğurlu təmsilçilik və rəhbərlik bu qələbənin əsas şərtləri kimi çıxış etməkdədir. Bununla yanaşı, 10 noyabr qələbəmizin təmin olunmasında xalqımızın birliyi, həmrəyliyi, milli-mənəvi dəyərlərimiz, multikultural cəmiyyətimiz böyük əhəmiyyət daşımışdır.

Milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının sərvətidir. Bu mənada xalqımızın sarsılmaz birliyi məhz milli-mənəvi dəyərlərimizə söykənir desək, yanılmarıq. 2020-ci ilin sentyabrın 27-də Ali Baş Komandanımızın əmri ilə erməni təxribatlarına qarşı aparılan əkshəmlə əməliyyatları başlanan kimi xalqımız bir yumruğa çevrilməyi bacardı. Siyasi mənsubiyyətindən, dini, milli fərqlərindən, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı qələbə uğrunda mübarizəyə qoşuldu. Azərbaycanda yaşayan bütün dini konfessiyalar, icmalar, etnik azlıqlar, əksər siyasi partiyalar, qeyri-hökumət təşkilatları dövlətin, ölkə Prezidentinin ətrafında sıx birləşdiyini, Qarabağın azadlığı uğrunda ortaya qoyulan bu iradəni dəstəklədiyini bəyan etdi. Bu, bəlkə də bəşər tarixində görünməmiş bir hadisə idi. Bir xalqın, bir millətin öz haqq savaşı uğrunda "dəmir yumruq" kimi düşmənə qarşı birləşməsi nəticədə qələbəmizin təminində əhəmiyyətli rol oynadı. Hər zaman qürurla səsləndirdiyimiz çoxmillətli, dini azadlıqlara malik ölkə olmağımız bir daha əyani şəkildə öz üstünlüyünü ortaya qoydu. Düşmənə qarşı səngərdə birləşən və Azərbaycanın bütövlüyü uğrunda canını ortaya qoyan oğullarımız məhz milli-mənəvi dəyərlərimizin bizə verdiyi gücün, qüvvənin sayəsində Prezidentimizin "Mən hər bir azərbaycanlının Prezidentiyəm", "Biz bilrlikdə güclüyük" və "Qarabağ Azərbaycandır!" şüarlarını özləri üçün həyat fəlsəfəsinə çevirdilər. Belə bir gücün qarşısında isə heç bir düşmən davam gətirə bilməzdi, elə gətirmədi də. Bu birlik, bu inam Azərbaycanın qəti və şanlı Zəfəri ilə nəticələndi.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra bir həqiqətin də şahidi olduq. Düşmənlərimiz ötən 30 ilə yaxın müddətdə Azərbaycan xalqının milli dəyərlərinə qarşı da vandal münasibət bəsləyib, milli keçmişimizi özündə əks etdirən tarixi, dini abidələrimizə qarşı soyqırımı həyata keçirib. Bunu faktlar sübut edir. 28 il düşmən işğalında qalan, Prezident İlham Əliyevin diplomatik səyi nəticəsində qan tökülmədən düşməndən azad olunan Ağdam rayonu "Qafqazın Xirosiması" adlandırılmaqdadır. Bir faktı diqqətə çatdırmaq lazımdır ki, 1990-cı illərin əvvəlinə kimi nəinki respublikamızda, hətta ümumittifaq səviyyəsində öz mədəniyyəti, tarixi, sənayenin inkişafı, abadlığı ilə göz oxşayan Ağdam rayonu ermənilər tərəfindən yerləyeksan edilib. Azərbaycanın ilk bölgə Dram Teatrı adını almış Ağdam Dram Teatrının gözoxşayan binası dağıdılıb. XVIII əsrin abidəsi sayılan, Ağdam etimologiyasının yaranma səbəblərindən olan Pənahəli xanın İmarət sarayı, divanxanası, məzarı dağıdılıb, yerləyeksan olunub. Dünya ictimaiyyəti bu faktları gözardı etməməlidir. Ağdam rayonunda yerləşən Şahbulaq abidə kompleksi, tarixi hamam məhəlləsi, Cümə məscidi, Qarağacı qəbiristanlığı erməni faşizminin qurbanına çevrilib. Qarağacı qəbiristanlığında hətta məzarlar açılıb, təhqir olunub. Bu, bir daha ermənilərin hansı psixologiyaya, hansı simaya malik olduğunu ortaya qoymaqdadır.

Təəssüfləndirici haldır ki, Ağdam rayonu ilə yanaşı, digər rayonlarımızda da eyni analoji vəziyyət hökm sürür. Ermənilər 30 ilə yaxın işğal altında saxladıqları Zəngilan, Cəbrayıl rayonlarında dağıntılar törətməklə yanaşı, ekoloji tarazlığın pozulması üçün də bütün yollara baş vurublar. Zəngilanın dünyada ikinci, Avropada isə birinci tarixi və nadir çinar meşəsi qırılıb, ağacların kökləri yandırılıb. Bu, bəşəri cinayətdir. Oxçu çayına axıdılan zərərli maddələr nəticəsində su çirkli haldadır. Bütün bunlar ermənilərin Azərbaycanın milli sərvətlərinə qarşı həyata keçirdiyi soyqırımıdır.

Ermənilər ötən 30 il ərzində İslam dininə mənsub tarixi abidələrlə yanaşı, həm də xristian-alban məbədlərini də yaxın yerləyeksan etməyə, ya da özününküləşdirməyə çalışıblar. Həmin tarixi abidələrdən Azərbaycanın izini silməyə çalışanlar elə dərk ediblər ki, bununla da özlərinə saxta tarix düzəldə bilərlər. Amma bu, mümkün deyil. Çünki həmin ərazilər, orada olan abidələr və o abidələrin xüsusiyyətləri, tikilişləri birmənalı şəkildə Azərbaycan tarixinin bir hissəsidir.

Hazırda Azərbaycanın qəlbi Qarabağla, Vətən müharibəsi zəfəri ilə döyünür. Necə ki, 2020-ci ilin sentyabrında hər bir azərbaycanlı ölkə Prezidenti İlham Əliyevin bir çağırışı ilə müsəlləh əsgərə çevrilərək torpaqlarımızı işğaldan azad etmək üçün əlinə silah aldı, bu gün də hər birimiz bu qələbənin möhkəmlənməsi üçün çalışmalıyıq. Nəzərə almalıyıq ki, artıq işğaldan azad edilən rayonlarımızın, şəhər və kəndlərimizin yenidən qurulması prosesinə başlanılıb. Yeni mərhələdə bu regionlarımız yenidən dirçəldiləcək, həmin ərazilərdə kənd təsərrüfatının, sənayenin inkişafına zəmin yaradılacaq. Bununla bağlı mühüm layihələr həyata keçirilməkdə, mühüm proqramlar qəbul olunmaqdadır. İnanırıq ki, qısa zaman kəsiyində Qarabağ və ətrafındakı rayonlarda həyat yenidən canlanacaq və öz doğma yurd-yuvalarına qayıdan vətəndaşlarımız rahat yaşayış şərtləri ilə təmin ediləcək.

Vətən əzizdir. Vətən şirindir. Onu qorumaq, gücləndirmək, çiçəkləndirmək hər bir vətəndaşın borcudur. Qarabağ Azərbaycandır!

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü***

# Dövlət Sərhəd Xidmətinin "Ağgöl" sərhəd zastavası kompleksi xidməti istifadəyə verilib

**Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.**









Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, aprelin 30-da DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində yeni inşa olunmuş "Ağgöl" sərhəd zastavası kompleksi xidməti istifadəyə verilib.

Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən DSX-nin rəisinin birinci müavini, Baş Qərargah rəisi general-leytenant Rəşad Sadıqov Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriklərini şəxsi heyətə çatdırıb.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sərhədçisinin həm sərhəddə, həm də səngərdə dövləti maraqların keşiyində durmağa hər zaman hazır olduğu xüsusi vurğulanıb. Sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsinə ən ali səviyyədə xüsusi önəm verilməsi sayəsində Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrində şəxsi heyət üçün zəruri xidməti və məişət şəraitinin yaradılması qeyd olunub, açılışı keçirilən sərhəd zastavasının bu yüksək qayğının növbəti təzahürü olduğu bildirilib.

Açılış mərasimindən sonra tədbir iştirakçıları sərhəd zastavası kompleksinə baxış keçiriblər. Burada şəxsi heyətin xidmətinin yüksək səviyyədə təşkili və asudə vaxtının səmərəli keçirilməsi üçün müxtəlif təyinatlı otaqlar, yataqxana, yeməkxana, hamamcamaşırxana, anbarlar inşa edilib, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri yaradılıb.

Xidməti fəaliyyətində fərqlənən bir qrup hərbi qulluqçu təltiflndirildikdən sonra tədbir bayram süfrəsi arxasında davam etdirilib. Sonda hərbi hissənin kinoloji mütəxəssisləri xüsusi təlim keçmiş itlərdən istifadə etməklə xidməti tapşırıqların icrası üzrə bacarıqlarını nümayiş etdiriblər.

***"Azərbaycan"***

# Azərbaycan Ordusunda Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər davam edir

**Respublika Prezidenti İlham Əliyev tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması və Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlərin keçirilməsi davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu münasibətlə "N" hərbi hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Nizami Gəncəviyə həsr edilmiş "Eşqdir mehrabı uca göylərin" adlı ədəbi-musiqili tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər vurğulayıblar ki, bu ilin "Nizami Gəncəvi ili" elan edilməsi ölkə rəhbərliyi tərəfindən milli-mənəvi dəyərlərə göstərilən xüsusi diqqətin, azərbaycançılığa, onun tarixinə və mədəniyyətinə olan ehtiramın təzahürüdür.

Bildirilib ki, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan vətəndaş və şəxsiyyətlərin formalaşdırılmasının mühüm vasitələrindən biri Azərbaycanın zəngin tarixini, o cümlədən mədəniyyətini dərindən öyrənməkdir. Qeyd olunub ki, hərbi qulluqçular arasında belə tədbirlərin keçirilməsi şəxsi heyətə milli-mənəvi dəyərlərin aşılanmasında və onun vətənpərvərlik ruhunun yüksəldilməsində mühüm rol oynayır.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının ifasında Nizami Gəncəvi və Əfzələddin Xəqaninin əsərlərinə yazılmış romanslar və muğamlardan ibarət "Eşqdir mehrabı uca göylərin" adlı ədəbi-musiqili kompozisiyalar təqdim olunub.

◆ Qarabağ dirçəliş yolundadır

*Qalib Sərkərdə Zəngilandan mesaj verdi:*

# Qarabağın yollarını çəkib Zəngəzur dəhlizinə keçəcəyik

*Əvvəli 1-ci səh.*

Coğrafi yerləşməsi və əlverişli nəqliyyat-logistika imkanları Zəngilan rayonunun da bu istiqamətdə güclü potensialının olduğunu göstərir. Ona görə də İlham Əliyev bu rayonda da hava limanının inşası barədə qərar verib. Bu səfər çərçivəsində isə limanın təməlini də qoyaraq növbəti aeroportun Laçında inşa olunacağını söylədi və bu hava limanlarının əhəmiyyətini dəyərləndirdi: "Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Horadiz-Zəngilan avtomagistral yolu isə geniş imkanlar açacaq. Yəni Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvanla birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti var.

Ümumiyyətlə, Avrasiya geoiqtisadi arealında Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verən Azərbaycan beynəlxalq nəqliyyat-logistika məkanlarından biri hesab olunur.

Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi və əlverişli geosiyasi, coğrafi mövqe Azərbaycana malik olduğu zəngin karbohidrogen ehtiyatları qədər yeni dividendlər qazanmaq şansı yaradıb. Hazırda Azərbaycanın dünya dövlətləri, güc mərkəzləri ilə münasibətlərinin təməlində məhz üstün geosiyasi, geoiqtisadi və coğrafi reallıqlar dayanır ki, bu da müvafiq olaraq ölkənin strateji maraqlarının yüksək səviyyədə təmin olunmasında aparıcı rol oynayır.

İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən, Azərbaycanın iştirakçısı olduğu digər qlobal miqyaslı layihələr, həqiqətən də, ölkəmizin dünya miqyasında siyasi, iqtisadi çəkisini daha da artırıb. Azərbaycan məhz bu reallıqlara görə ən etibarlı tərəfdaş kimi qəbul edilir.

İkinci Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycanın nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi üçün çox əlverişli imkan yaranıb. Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə Bəyanatda Zəngəzur dəhlizinin açılması da müddəa kimi qeyd edilib. Yəni Ermənistan "Zəngəzur nəqliyyat dəhlizi"nin gerçəkləşməsini təmin etməlidir. Bu dəhlizin açılması isə uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzura yendən qayıdışını təmin edəcək.

Razılaşdırmaya əsasən, Ermənistan Azərbaycanın qərb bölgələri ilə muxtar respublika arasında nəqliyyat əlaqəsinin qurulmasına zəmanət verir. Bəyanatın şərtinə əsasən, Zəngəzur dəhlizi Laçın dəhlizindən fərqli olaraq ərazi dəhlizi deyil, nəqliyyat dəhlizi funksiyası rolunu oynayacaq.

## İlham Əliyev dost və tərəfdaş ölkələrə çağırış etdi

Zəngəzur dəhlizinin yaradılması layihəsinin birbaşa müəllifi olan İlham Əliyev müharibədən sonra iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə, görüşlərdə dost və strateji tərəfdaş olan ölkələri, xüsusən də Türk Şurasının, İqtisadi Əməkdaşlıq Təşkilatının üzvlərini bu dəhlizin yaradılması prosesinə töhfə verməyə dəvət edib.

Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələrinin bütün türk dünyasını birləşdirəcəyini, digər ölkələr, o cümlədən Ermənistan üçün əlavə imkanlar yaradacağını xüsusi vurğulayan İlham Əliyev aprelin 26-da Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri də bu nəqliyyat dəhlizinin potensialını nəzərdən keçirməyə çağırdı. Prezident işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən layihələr barədə tərəfdaş ölkələri məlumatlandıraraq dedi ki, əksər istiqamətlərdəki yenidənqurma prosesi çərçivəsində "ağıllı" şəhər, "ağıllı" kənd və "yaşıl enerji" konsepsiyalarından istifadə olunacaq. Ona görə də İlham Əliyev dost ölkələrdən olan şirkətlərə də təkliflər irəli sürərək bu layihələrin reallaşması prosesinə, yəni irimiqyaslı yenidənqurma işlərinə dəvət etdi.

BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasında çıxış edən Prezident hazırda Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində iş görüldüyünü söylədi. İlham Əliyev bəyan etdi ki, bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək: "Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".

## Türkiyə, Çin, İsrail və İtaliya şirkətləri Qarabağda

Müharibədən sonra Prezidentin dost ölkələrə müraciəti öz müsbət nəticəsini göstərir. Bu gün bir çox ölkənin böyük şirkətləri Qarabağda icra olunan layihələrə töhfə verir. Zəngilanda "ağıllı" kənd pilot layihəsinin təməlinin qoyulması mərasimində bir çox layihənin gerçəkləşmə prosesində iştirakçı dost ölkələr görünür.

Hazırda Qarabağda reallaşan layihələrin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri iştirak edirlər. Çox güman ki, tezliklə onların sayı artacaq.

Bu dost ölkələrlə Azərbaycan arasında olan əməkdaşlığı yüksək dəyərləndirən İlham Əliyev əmin olduğunu bildirdi ki, bütün layihələr uğurla icra ediləcək: "Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də, yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası, sözsüz, bizə imkan verəcək ki, bu təcrübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik".

Bütün bunlar isə göstərir ki, İlham Əliyev tək ölkəmiz üçün deyil, həm də region üçün gələcək qurmaqla bağlı təkliflər irəli sürür, yeni inkişaf strategiyası müəyyənləşdirir.

Artıq İlham Əliyev bu prosesə start verib və Azərbaycan yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik, proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlayıb. Bununla da Vətən müharibəsindən sonra da çox konstruktiv yanaşma nümayiş etdirən Azərbaycan öz öhdəliklərinə sadiq olduğunu bir daha nümayiş etdirir.

Bu gün mühüm hədəflərdən biri işğaldan azad edilmiş torpaqlarımızda bərpa, quruculuq işlərinin sistemli şəkildə reallaşması və yüksəliş dövrünün başlanmasıdır. Prezidentin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasının beş milli prioritetinin bir istiqaməti də Qarabağın dirçəlişi prosesinə istiqamətlənib. Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi region iqtisadiyyatının ümumi mənzərəsinin müəyyənləşdirilməsində Azərbaycanın rolunu daha da gücləndirəcək.

## Zəngəzur dəhlizi qitənin nəqliyyat xəritəsini dəyişəcək

Son 17 ildə İlham Əliyevin həyata keçirdiyi sistem xarakterli iqtisadi islahatlar və qlobal çağırışlara uyğun olaraq hazırlanmış strateji yol xəritələrinin icrası Azərbaycanı dünyanın əlverişli investisiya məkanlarından birinə çevirib.

Avrasiyanın əsas logistika mərkəzlərindən biri kimi qəbul edilən ölkəmiz şimaldan cənuba və şərqdən Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağı kimi tanınır. "Zəngəzur nəqliyyat dəhlizi"nin reallığa çevrilməsi isə əlbəttə ki, ilk növbədə regionda sabitliyi möhkəmləndirəcək və Azərbaycanın logistik imkanlarını daha da şaxələndirəcək. Bu, həm region ölkələri, həm də dəhlizdən istifadə edəcək ölkələr üçün real imkanlar yaradacaq.

Cəbrayıl və Zəngilana səfəri çərçivəsində Mincivan qəsəbəsində olan Prezident bu dəhliz barədə maraqlı fikirlər səsləndirdi. Mincivanın əvvəlki şöhrətinin özünə qaytarılacağını vurğulayan İlham Əliyev həm dəmir, həm də avtomobil yollarının bərpa ediləcəyini söylədi: "Dəmir yolu yenidən qurulacaq, vağzal da həmçinin. Dəmir yolunun yenidən qurulması prosesinə start verildi. Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvana qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək".

İlham Əliyevin bir müddət öncə təməlini qoyduğu Horadiz-Ağbənd dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvanla Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcək.

Təbii ki, böyük coğrafiyanı əhatə edən beynəlxalq layihələrdə Azərbaycanın imzasının olması İlham Əliyevin Qalib Sərkərdə kimi güc və qətiyyətinin, Prezident kimi isə uğurlu xarici siyasi diplomatiyasının bariz təcəssümüdür. Tezliklə bu dəhlizin fəaliyyətə başlaması ilə Azərbaycanın həm nəqliyyat-logistika imkanları genişlənəcək, həm də siyasi və iqtisadi qüdrəti daha da artacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Saxta soyqırımına girov düşən ABŞ demokratiyası



**Çox halda tarixi ədəbiyyatda, məqalələrdə, xüsusilə görkəmli siyasi xadimlərin müsahibələrində "1915-ci ildə Osmanlı imperiyasında erməni qırğınları" deyimindən onun mahiyyətinə əhəmiyyət vermədən istifadə edirlər. Bu, yanlış addımdır və Osmanlı dövlətində 1915-ci ildə baş vermiş hadisələrin mahiyyətini bilməməkdən irəli gəlir. 1915-ci ilin aprelində Osmanlı imperiyasında ermənilərlə əlaqədar nə baş vermişdir? Osmanlı istihbaratanda sultanın "sadiq təbəə"si olan ermənilərin və onların həqiqi mənada idarə olunan mərkəzlərinin xəyanəti haqqında çox məlumatlar var idi.**

Erməni mərkəzləri əhalini silahlandırdıqdan sonra gizli razılaşmaya görə Rusiyanın tərəfinə keçiblər. Onlar Osmanlı dövlətinə qarşı vuruşmağı planlaşdırırdılar.

Osmanlı dövləti bununla əlaqədar olaraq xəyanət yolu tutmuş erməniləri ölkənin ucqar cənubi-qərb bölgələrinə müharibə zonasından müharibə getməyən yerlərə köçürülməsi haqqında qərar verdi. Təhcir prosesində ermənilərdən, həm də türklərdən mövcud yol, nəqliyyat, hava, ərzaq təminatı çətinlikləri ilə əlaqədar olaraq az sayda ölənlər də oldu. Yollarda ölənləri erməni qırğını adı ilə təqdim etmək məqsədlidir, Osmanlı tarixini bilməməkdən irəli gəlir. Ermənilər tarixi ədəbiyyatda "Andonyan bəlgəsi" adlanan saxta, tarixi reallığı əks etdirməyən "soyqırımı sənədi"ni Osmanlı dövlətində və dünyada yaydılar. Bu elə bir vaxta təsadüf edirdi ki, Osmanlı dövlətinin istihbaratı öz vəzifəsini yerinə yetirərək heç bir qan tökmədən, ölüm olmadan ölkənin hər yerində xainləri həbs edirdi.

Erməni mərkəzləri 106 ildir ki, 24 aprel 1915-ci ildə Osmanlı dövlətində vətənə xəyanət etdikləri üçün həbs edilmə prosesini soyqırımı kimi dünyaya təqdim edirlər. "Soyqırımı" termini beynəlxalq hüquqa 1946-cı ildə daxil olduğundan belə tanınmanın Türkiyəyə heç bir hüquqi təsiri yoxdur. Dünyada soyqırımı sözünün işlədilməsi İkinci Dünya müharibəsindən sonra baş vermişdir. İkinci Dünya müharibəsi zamanı nasistlərin təşkil etdiyi Holokostdan sonra soyqırımı termini beynəlxalq sənədlərdə əksini tapdı.

Bu vaxta qədər Amerika prezidentlərinin bəyanatlarında "böyük fəlakət" ifadəsindən istifadə edilirdi. İndiyədək həm demokrat, həm də respublikaçı prezidentlər Türkiyə ilə əlaqələri korlamamaq üçün bu mövzuda daima açıq mövqe tutmaqdan çəkiniblər. Bu il Co Baydenin keçmiş prezidentlərdən fərqli bir istiqamət seçdiyini görürük.

Türkiyə Respublikasından əlaqədar qurumların verdiyi açıqlamalarda soyqırımı sözünün işlənməsi üçün nə tarixi, nə də hüquqi əsasın olmadığı və Baydenin bu addımı populist siyasi səbəblərdən atdığı vurğulanıb. Bu reaksiyalarla paralel olaraq rəsmi mənbələrdən edilən açıqlamalarda Co Baydenin qərarının Türkiyə-ABŞ münasibətlərinə birbaşa təsir edəcəyi ilə bağlı heç bir ifadənin olmaması və ABŞ-a qarşı qisasdan bəhs olunmaması diqqəti çəkib. Keçmişdə buna bənzər vəziyyətlərdə Ankara səfirini məsləhətləşmə üçün ölkədən geri çağırırdı, siyasi və hərbi əməkdaşlığı dayandırmaq kimi bir çox digər addımlar da atırdı.

Ankaranın reaksiyasının ilk mərhələdə Baydenə yönəldilməsi və siyasi motivlərlə səsləndirilmiş bu terminin hüquqi qüvvəyə malik olmaması da şərhlərdə yer alıb.

Amerika Prezidenti xəyali soyqırımı axtarınca öz tarixində olan oxşar hadisələri yada salmış olsaydı, daha həqiqi və tarixi ədalətə hörmət etmiş olardı. Amerikada yaşayan hinduların sayı avropalılar gəldikdən sonra həddən artıq azaldılmış və bir çox yerlərdə yox olmaq dərəcəsinə çatmışdır. 100 milyona yaxın adamın "Amerikan Holokostu" zamanı öldüyü təxmin edilir.

Havay Universitetinin professoru, politoloq Rudolf Rummel Avropadakı müstəmləkəçilik dövründə 2 ilə 15 milyon arasında hinduların soyqırımı qurbanı olduğunu təxmin edir. Rummel yazırdı: "Bu rəqəmlər gerçəkləri uzaqdan əks etdirsə belə, Amerikanın fəthi dünya tarixinin ən qanlı və ən uzun soyqırımlarından biri hesab edilə bilər".

Amerika prezidenti onda çox ədalətli olardı ki, hinduların soyqırımı haqqında faktlara müraciət edəydi. Amerikaya gələn avropalılar yerli hinduları məhv etmək üçün şeytanın yadına düşməyəcək metodlardan istifadə edirdilər. Onlar ən ağır xəstəliklərin viruslarını gətirib yerli hinduları yoluxdurur və bununla onların kütləvi şəkildə qırılmasına - hindu demoqrafik fəlakətinə səbəb olurdular. Eyni zamanda Amerikanın avropalılar tərəfindən müstəmləkələşdirilməsi hinduların torpaqlarından zorla köçürülməsi və yerli əhalinin müxtəlif vasitələrlə qətl edilməsi yolu ilə həyata keçirilirdi. İngilis müstəmləkəçiləri yerli insanların Avropa xəstəliklərinə qarşı toxunulmazlığının olmadığını bilə-bilə çiçək xəstəliyinin daşıyıcılarını, məsələn, paltar və yorğanı yerli hindu əhaliyə paylayırdılar. Nəticədə onlar yoluxur və kütləvi şəkildə qırılırdılar.

Avropadan Amerikaya cəza kampaniyaları gətirmişdilər. Kütləvi edamlar təşkil edirdilər. Yerli əhalini Avropadan gətirilən xüsusi təlim görmüş itlərin vasitəsilə tutur və cəzalandırırdılar. Avropalılar yerli əhalidə olan qızılları zorla alır və müqavimətə rast gəldikdə öldürür, ya da köləyə çevirirdilər. Köpəklərini yedirtmək üçün hinduları heyvan kimi parçalayır və itlərə verirdilər.

Tədqiqatçılar məlumat verirlər ki, avropalılar Amerikada yalnız yerli hinduları qətlə yetirmədilər, heyvanat aləmini də məhv etdilər. 1800-cü ildə bizonun sayı 30-40 milyon heyvan idi və əsrin sonuna qədər, demək olar ki, tamamilə məhv edildi. Avropalıların Amerikanın yerli əhalisi olan hindulara münasibətini bu yanaşmadan da müəyyən etmək olar. Belə ki, onlar "ən yaxşı hindu ölü hindudur" deyirdilər.

Soyqırımı gizlətmək üçün avropalılar Amerikada fərqli müharibələr təşkil edir və yerli əhalinin onların təşkil etdiyi soyqırımlarında deyil, ara müharibələrdə öldüyünü iddia edirdilər. Əksər Amerika tarixçiləri yerli əhalinin azalmasını belə bir şəkildə izah etmək üçün "soyqırımı" ifadəsindən istifadə etməkdən çəkinirlər. Bir sıra tarixçilər bütün Avropa müstəmləkəçilik tarixini tək və uzun sürən bir soyqırımı aktı olaraq qəbul etmək əvəzinə, fərdi müharibələri düşünürlər. Burada çox maraqlı bir haşiyə çıxmağa ehtiyac var. Ermənistan tarixçiləri Karen Vrtanesyan və Aram Palyan tədqiqatlarında Amerikada aborigenlərin soyqırımının bəşəriyyət tarixində ən amansız soyqırımı olduğunu yazırlar.

Seçkilərdə qalib gəlməsinə baxmayaraq, Co Baydenə qarşı olanlar da az deyil. Əleyhdarları iddia edirdilər ki, Baydenin komandası seçkilərdə saxtakarlığa yol vermişdir. Onun nəticəsi idi ki, andiçmə mərasimindən öncəki bir neçə ay Amerikada seçkilər mübahisələr və zorakılıqla yadda qalıb. Tramp səslərin sayılmasında fırıldaqçılığa yol verildiyini bəyan etmiş və yeni seçilmiş Prezident Baydeni təbrik belə etməmişdir. Bəzi amerikalılar Co Baydenin qələbəsini qəbul etməkdə çətinlik çəkib.

Baydenin prezidentlik vəzifəsinin icrasına başlaması Amerika tarixində bir sıra hadisələrlə yadda qaldı. Baydenin əleyhdarları Kapitoliyə hücum etməkdən belə çəkinmədilər.

Ermənistan xarici işlər nazirliyi yaydığı bəyanatda prezident Co Baydeninin "erməni soyqırımı"nı tanımasını alqışlayıb. Nazirlik bu bəyanatın "erməni soyqırımı"nın dünya boyu tanınmasına və soyqırımların qarşısının alınmasına töhfə verdiyini bildirib.

Azərbaycan Xarici İşlər Nazirliyi isə ABŞ prezidetinin erməni anım günü münasibətilə yaydığı bəyanata verdiyi şərhdə "tarixi həqiqətlərin təhrif olunması" ilə bağlı təəssüf hissini ifadə edib.

Baydenin "soyqırımı" şousundan bir neçə dəqiqədən sonra İstanbulda erməni patriarxına verdiyi açıqlamada Prezident Rəcəb Tayyib Ərdoğan mübahisələrin "üçüncü tərəflər tərəfindən siyasiləşdirilməməsi" deyil, "tarixçilər tərəfindən aparılması" lazım olduğunu söylədi.

ABŞ prezidentinin tarixi gerçəkliyi nəzərə almadan təzyiq altında "erməni soyqırımı" ilə bağlı bəyanatı tamamilə qəbuledilməzdir, qərəzli mövqeyin, ikili standartların davam etməsinin ifadəsidir. Amerika kimi dövlətin prezidentinin belə bir fikir söyləməsi təmsil etdiyi dövlətin dövlətçilik ənənələrinin mahiyyətinə kölgə salır.

***Həsənbala SADIQOV,***
***Azərbaycan Respublikasının***
***Əməkdar müəllimi, professor***

# Müdafiə Nazirliyində vahid kommunikasiya strategiyasının təkmilləşdirilməsinin müzakirəsi məqsədilə görüş keçirilib

Aprelin 29-da Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində nazirliyin vahid kommunikasiya strategiyasının təkmilləşdirilməsinin müzakirəsi məqsədilə görüş keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazirliyin müxtəlif müəssisə və təşkilatlarından cəlb olunan zabit heyəti kommunikasiya strategiyasının təkmilləşdirilməsi istiqamətində ətraflı fikir mübadiləsi aparıb. Təcrübələrin toplanılması və öyrənilməsi, analiz metodları, qiymətləndirmə və digər mövzulara dair sindikatlar keçirilib.

Jurnalist araşdırması

# Qarabağ mövzusu telekanallarda niyə bəsit işıqlandırılır

## Məişət dedi-qoduları, primitiv şoular teleməkanda hələ də Vətən və Zəfər mövzusunu üstələyir

*27 sentyabr 2020-ci il...*

*Ali Baş Komandan İlham Əliyev televiziya vasitəsilə Ermənistanın işğal etdiyi torpaqlarımızda təxribat törətməsi və Vətən savaşının başlaması ilə əlaqədar xalqa müraciət etdi...*

*Və dövlət başçısının bu müraciəti Yer üzündə yaşayan bütün azərbaycanlıları "7-dən 77-yə" yerli televiziyalarımızın ekranlarına kilidlədi...*

*Elə həmin tarixdən etibarən illərdir yerli TV-lərdə istəyinə uyğun veriliş tapmayaraq xarici teleməkanlara üz tutan azərbaycanlı tamaşaçı gecə-gündüz öz televiziyalarımızın qarşısından əl çəkmədi.*




44 günlük müharibə dövründə Ali Baş Komandanın xalqa müraciətlərini, azad edilən yurdlarımızın adlarını bir-bir çəkməsini, hər ötən gün qələbə müjdələri verməsini böyük coşqu ilə izlədi.

Həmin kadrlara bir dəfə baxmaqla doymadı, dəfələrlə, təkrar-təkrar seyr etdi...

Bəli, heç bir pafosa, ifrata varmadan demək olar ki, sentyabrın 27-dən 10 noyabra qədərki 44 gün ərzində Azərbaycan tamaşaçısı nə əcnəbi telekanallardakı hansısa verilişi izləməyə, nə də seriala baxmağa maraq, həvəs göstərdi...

### Mənəviyyata qarşı teleqəsd

Amma elə ki Vətən müharibəsi bitdi və üzərindən qısa müddət keçdi, azərbaycanlı televiziya izləyiciləri yenidən xarici telekanallara yönəldi...

Bəs izləyicilərin birdənbirə yerli telekanallardan əcnəbi televiziyalara doğru sürətlə dəyişən marağının səbəbi nədir, görəsən?

Buna cavab tapmaq üçün isə sadəcə yerli telekanallarımızın tamaşaçıya təqdim etdiyi, əslində sırımaq istədiyi verilişlərə, çəkdiyi teleseriallara göz gəzdirmək kifayətdir.

İllərdir Azərbaycanlı televiziya seyrçisinin səviyyəsini bazar meyarları ilə ölçən telebazar möhtəkirləri tamaşaçıların yalnız əyləncə, şou ilə maraqlandığını irəli sürüb, bu bəhanələrin arxasına sığınaraq daha asan başa gələn və reklama hesablanan verilişlər, seriallar çəkməyin arxasınca qaçıblar. Milli mənəviyyatımıza tamamilə yad verilişlər yayımlayıb, məişət səviyyəsindəki "gəlin-qayınana" münaqişəsini ölkənin əsas müzakirə mövzusu kimi təqdim etməyə çalışıblar. Elə hazırda da vəziyyət fərqli deyil. Qazanc hərisliyindən doğan və sadəcə reklama hesablanan bu cür yanaşmalar isə, təbii ki, azərbaycanlı tamaşaçını, sözün əsl mənasında, iyrəndirərək əcnəbi efirlərə yönləndirib.

Yeri gəlmişkən deyək ki, artıq bu məsələ ilə bağlı özəl telekanalların hər zaman gətirdiyi köhnə bəhanələri - "tamaşaçı yüngül şou proqramlara daha çox maraq göstərir", "izləyici bu cür verilişlərə baxmaq istəyir" kimi tezisləri çürüyüb.

Yuxarıda nümunəsini verdiyimiz kimi, Azərbaycan tamaşaçısını ölkənin, xalqın, dövlətin taleyindən daha çox maraqlandıracaq ikinci bir məsələ yoxdur.

Sadəcə televiziyalarımız bir az istedad nümayiş etdirərək, həvəs göstərərək həmin məsələləri tamaşaçılar üçün baxımlı etməyə səy göstərməlidir.

### Niyə yalnız şou olmalıdır?

Televiziya milyonlarca izləyici auditoriyası olan ən güclü təbliğat vasitəsidir. TV-nin əlində olan bu geniş imkandan ictimaiyyəti məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək üçün istifadə edilməlidir. Lakin bizim əksər televiziyalar ilk iki tələbin üzərindən qara bir xətt çəkərək, sadəcə üçüncü, əyləndirmək missiyasını yerinə yetirməyə çalışır.

Və əyləndirmək sözünün ehtiva etdiyi mənanı da tamamilə özlərinə sərf edəcək şəkildə tətbiq edir, gecə-gündüz yüngül şou proqramlar hazırlayıb efirə verirlər ki, bu, ictimai sifarişdir...

Bu gün özəl teleşirkətlərin efirləri səviyyəsiz şoular, ucuz əyləncə verilişləri, şit maqazin proqramları ilə doldurulub. Birdən-birə haradansa peyda olan yeni simalar - mahnısından çox qalmaqalları ilə məşhur olan müğənnilər, xalqa "sənətkar" kimi təqdim olunanlar ya verilişlərin qonaqlarıdırlar, ya da ki, özləri proqram aparıcısıdırlar. Şübhəsiz, sənətdən bixəbər və istedaddan uzaq olan bu tipli şəxslərin efirlərə qonaq, yaxud da aparıcı kimi çıxmaları onların həmin kanallara ödədikləri pul vəsaitləri, yaxud da cəlb etdikləri reklamlar vasitəsilə mümkün olur.

Təbii ki, özəl kanalların biznes maraqları da var, amma bu maraqlar xalqın, dövlətin ictimai mənafeyini üstələyə bilməz və üstələməməlidir.

Yüz illər sonra Azərbaycanın bugünkü telekanallarının fəaliyyətinə nəzər salanlarda elə bir təsəvvür yaranacaq ki, XXI əsrin əvvəllərində azərbaycanlı tamaşaçılar ölkənin həyatında baş verən bu qədər taleyüklü məsələlərin fövqündə televiziyalardan yalnız şou tələb ediblər.

Reallıq isə tamam başqadır.

Televiziya efirlərimiz o qədər bəsit materiallar, ucuz şou məhsullar, musiqi proqramları ilə dolduruldu ki, tamaşaçı kütləsi ondan üz çevirərək türk, rus, Avropa kanallarına yönəldi.

Və öz telekanallarımızda tamarzı olduqları intellektual verilişləri, maraqlı məlumatları, maarifləndirici proqramları xarici kanallardan hava-su kimi qəbul etməyə başladılar...

### Teleulduzlar ancaq mənəviyyat naqisləri içindən seçilir

Televiziyanın həm də milli adət-ənənələrin qorunub saxlanmasında, cəmiyyətin mənəvi dəyərlər sisteminin formalaşmasında əvəzsiz rolu var. Amma Azərbaycanın özəl teleməkanında hazırlanan verilişlərin əksəriyyətinin bu dəyərlərdən çox-çox uzaq olduğunu görürük. Bu verilişlərin əsas qayəsi süni sensasiya yaratmağa, adamları qarşıdurmaya çəkərək qalmaqallar törətməyə, təsadüfi hadisələri şişirdərək millətin və xalqın ümumi bəlası kimi təqdim etməyə yönəlib.

Əksər özəl televiziya kanallarımız üçün ən populyar veriliş mövzularından biri də insanların illər əvvəl itkin düşən doğmaları ilə qovuşdurulmasıdır. Bu mövzularda "Xəzər"in "Səni axtarıram" (aparıcı Xoşqədəm Hidayətqızı) və ATV-nin "Bizimləsən" (aparıcı Zaur Baxşəliyev) proqramları ilk baxışdan çox təqdirəlayiq, doğmaların bir-birinə həsrətinə son qoyan humanist bir missiyanı həyata keçirmək təəssüratı yaradan bu verilişlərin iç üzü isə tamamilə fərqlidir. Və sanki tamaşaçının əsəbini sınağa çəkmək üçün xüsusi tərtib olunub.

Diqqət edirsən ki, harada ən mənəviyyatsız biri varsa, onu tapıb gətirirlər studiyaya. Belə şəxslər ya övladını atan anadır, ya həyat yoldaşına xəyanət edən ər, ya qonşusunun övladına qənim kəsilən cani və sair və ilaxır.

Efirdə onu ifşa edirlər, doğmaları bir-birinə qarşı qoyurlar, dalaşdırırlar, haykü, qışqırıq aləmi başına götürür.

Və bütün bu psixoloji biabırçılığa tamaşaçının əsəbləri dözmür, başını götürüb Azərbaycan teleməkanından sürətlə uzaqlaşır...

Bu cür verilişlərdə tamaşaçıya aşılanmaq istənilən dəyər, güdülən məqsədin nə olduğu isə tam bir müəmmadır.

Məgər, xalqımızın mavi ekrana çıxarılacaq üzləri sadəcə gəlinini yola verməyən qayınanadır?

Yoxsa valideyninin üzünə ağ olan övladlar.

Və bütün cəmiyyətlərdə var olan 3-5 belə mənəviyyat kasadlarını xüsusi səylə axtarıb taparaq ictimaiyyətə təqdim etməyin məramı nədir?

### Düşmən dəyirmanına tökülən su

Düz 30 il idi ki, Azərbaycan erməni millətçilərinin torpaqlarımıza qarşı təcavüzü ilə üz-üzə qalmışdı, Qarabağ tapdaqdaydı, yüz minlərlə vətəndaş qaçqın, köçkün vəziyyətində min bir zillətə düçar olmuşdu. Həmin insanların hər birinin taleyi, necə çətin şəraitlərdə yaşayaraq həyat mücadiləsi verməsi haqqında günlərlə davam edəcək silsilə verilişlər hazırlamaq olardı.

Azdırmı əri şəhid olan, azyaşlı övladlarını min bir əziyyətlə böyüdən, onlara təhsil verən, əllərini çörəyə çatdıran qəhrəman analarımız?

Bəlkə hər iki valideynini Xocalıda itirən və uşaq yaşlarından bacı-qardaşlarının bütün yükünü çiyninə götürərək onları böyüdüb boya-başa çatdıran övladlarımız yoxdur?!

Bəs nə üçün onlar deyildi (elə indi də) mavi ekranlarımızın qəhrəmanları?

Axı televiziya həm də bir xalqın mənəvi güzgüsü, kənardan izləyənlər üçün onun haqqında fikir formalaşdıran ümumi meyardır.

Bu illər ərzində istisnasız olaraq heç bir televiziya kanalında Qarabağa həsr olunan, oradakı milli-mənəvi dəyərlərimizi təbliğ edən silsilə proqramlara rast gəlmədik. Əksinə, mənəviyyatımıza tamamilə yad proqramlar hazırlanaraq efirlərdə kriminal ünsürlər, cinayətkarlar, bəd əməllərlə məşğul olanlar, istedadsızlar qəhrəmanlaşdırıldı, bir növ onların həyat tərzi cəmiyyətə təlqin olundu.

Əslində elə düşmənimiz erməni faşistlərinin də məqsədi bu deyilmi və daim buna çalışmırlarmı ki, xalqımız milli mənəvi dəyərlərindən uzaq düşsün, tarixini tamamilə unutsun.

Buna görə deyilmi ki, 30 il ərzində Qarabağda maddi-mədəni, dini abidələrimizi tamamilə məhv edib xalqımıza məxsus dəyərləri Yer üzündən silməyə çalışıblar?!.

Halbuki Qarabağ kimi böyük problemi olan, on minlərlə şəhid verən, yüz minlərlə vətəndaşı öz yurdunda məcburi köçkünə çevrilən ölkənin televiziya efirlərində bu cür mənzərələr görünməməliydi.

Televiziyalarımız da bu istiqamətdə dövlətin gördüyü işlərə, apardığı təbliğata dəstək verərək Azərbaycan həqiqətlərini, mədəniyyətini, milli-mənəvi dəyərlərini təbliğ etməli idi.

### Qarabağ mövzusundan yan gəzən telekanallar

Özəl televiziya kanallarının efirlərində yayımlanan bayağı ssenarilər əsasında çəkilmiş məişət xarakterli teleseriallar isə bir başqa dəhşətli mövzudur. Bu seriallarda məişət zorakılığı, yalan, xəyanət, vəfasızlıq, saxta sevgi hissləri at oynadır...

Və insanların mənəvi deqradasiyasına səbəb olan, uşaqların, yeniyetmələrin əxlaqına, psixologiyasına birbaşa təsir edən bu teleseriallar dövlət büdcəsindən ayrılan vəsait hesabına çəkilir...

Hansısa müəmmalı yanaşmaya əsasən indiyə qədər bu serialların birinin də ssenarisi Qarabağa həsr olunmayıb.

Həmin serialların birində də hansısa məcburi köçkün baş qəhrəman kimi canlandırılmayıb.

Hansısa alimimizin həyatı səhnələşdirilməyib, elm, təhsil, mədəniyyət təbliğ olunmayıb.

Erməni faşistlərinin xalqımıza qarşı törətdikləri Xocalı soyqırımının bənzəri dünya tarixində yaşanmayıb. Dövlətimiz bu cinayətin bütün dünyada öz hüquqi qiymətini alması üçün ciddi işlər həyata keçirir, təbliğat aparır. Amma nə yazıq ki, televiziyalarımızda Xocalı həqiqətlərindən bəhs edən, orada yaşanan vəhşət barədə bəşəriyyətə məlumat verməkdə əvəzsiz rol oynaya biləcək bir serial belə çəkilməyib...

Seriallar hazırkı zamanın tələbi olaraq bütün dünyada çəkilir. Elə biz də bu yeni yaradıcılıq formasına qarşı deyilik, əksinə, elə Türkiyədə çəkilən serialların təcrübəsindən bilirik ki, bu vasitə ilə dövləti, milləti, xalqı, onun keçmişini, milli-mənəvi dəyərlərini bütün dünyada necə möhtəşəm təbliğ etmək olar.

### Azərbaycanın tarixi həqiqətlərini bizim seriallar görməzdən gəlir, türk serialları isə təbliğ edir

Təkcə "Diriliş Ərtoğrul" serialını nümunə çəkək. Bu tarixi serial bitib, amma hələ də dünyanın dörd bir yanında, həm də müxtəlif xalqlar tərəfindən sevilərək izlənilir. Bu serial sayəsində uzaq-uzaq ölkələrin insanları Osmanlının yaradılış tarixinə heyran olur, türklərin igidliyinə, qəhrəmanlığına, vətən sevgisinə qibtə edirlər.

Bəs bizdə niyə müxtəlif şəxsiyyətlər, maraqlı tarixi hadisələr haqqında təbliğati seriallar çəkilmir? Düşünürsünüz ki, bu tamaşaçılarımız üçün maraqlı deyil və sizə pul qazandırmayacaq?

